# 22 İYUL MİLLİ MƏTBUAT VƏ JURNALİSTİKA GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 128 (10148) 22 iyul 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Almaniya münasibətlərində irəliyə doğru böyük addım





## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyada rəsmi səfərdədir

İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşmək üçün Berlindəki "Villa Borsig" iqamətgahına gəlib.

Berlində Azərbaycan Prezidenti İlham Əliyevin Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.

Həmin gün Prezident İlham Əliyevin Berlində rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə təkbətək görüşü olub.

Sonra Berlində Almaniya-Azərbaycan sənədləri imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Berlində mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

2-3



## AZƏRBAYCAN XALQI İLHAM ƏLİYEVİ NİYƏ SEVİR

Azərbaycan Prezidenti İlham Əliyevin həyat və fəaliyyətini nəzərdən keçirərkən belə bir haqlı qənaətə gəlirsən:

İlham Əliyev, əslində, böyük siyasət üçün doğulmuş, dövlət rəhbəri olmaq üçün yaranmışdır!

Bu, gəlişi gözəl ifadə deyil, İlham Əliyevin keçdiyi həyat yolu, dövlətə rəhbərliyi dövründə etdiklərindən doğan təbii və obyektiv qənaətdir.

Faktlara və hadisələrə yığcam şəkildə nəzər salaq.

İlham Əliyev görkəmli siyasi xadim, dünyaşöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin ailəsində dünyaya göz açmışdır.

Ulu Öndər Heydər Əliyev həm də Azərbaycanda böyük bir siyasətçilər, dövlət məmurları nəslinin yetişməsində, səmərəli fəaliyyət göstərməsində, dövlətə necə xidmət etmək lazımdır prinsiplərinə yiyələnməsində danılmaz köməyi və əməyi olan dövlət rəhbəridir.

Bütövlükdə, öz nəhəng fəaliyyəti ilə Ulu Öndər Heydər Əliyev dövlətə və xalqa özünəməxsus xidmət məktəbi də yaratmışdır!

Bu məktəbə dərin hörmət və sevgi ilə "Heydər Əliyev məktəbi" də deyilir.

İlham Əliyev "Heydər Əliyev məktəbi"ni əyani şəkildə bitirən yeganə məzundur!

❖ ❖ ❖

İlham Əliyev siyasətçi və dövlət xadimi kimi bütün zəruri keyfiyyətlərə malikdir!

Uca boy-buxunu, ciddi xarakteri, təmkinli davranışı, doğma dilindən başqa rus, ingilis, fransız, türk dillərinidə sərbəst danışa bilməsi onun hər siyasətçiyə qismət olmayan üstünlükləridir!

İlham Əliyev daim sinədəftər çıxışlar edir, nitqini cəlbedici və məntiqli, maraqlı qurur, bütün faktları və rəqəmləri əzbərdən səhvsiz, olduğu kimi dinləyənlərə çatdıra bilir və üstəlik, fəaliyyəti dövründə bir dəfə də olsun yanlışlığa, qeyri-dəqiqliyə yol verməyib!

İlham Əliyev mükəmməl ixtisas təhsili almış, dünyaca məşhur Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra bir müddət həmin təhsil ocağında müəllim işləmişdir və hazırda onun şəkli həmin institutun "Şərəf lövhəsi"ni bəzəyir.

5

## Prezident İlham Əliyevin sosial media hesablarında Almaniyaya rəsmi səfəri ilə bağlı videoçarx paylaşılıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Almaniyaya rəsmi səfəri ilə bağlı videoçarx paylaşılıb.

AZƏRTAC paylaşımı təqdim edir.

## Müstəqilliyə gedən yolun strateji təməli

Ölkəmizin çətin dövründə Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ümummilli Liderin ata ocağına qayıtması Naxçıvanı təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan əhalisinin mütəşəkkil və yekdil iradəsi nəticəsində Heydər Əliyevin həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə xalq deputatı seçilməsi onun siyasi fəaliyyətinə hüquqi və demokratik legitimlik qazandırdı. Naxçıvandan başlayan milli dirçəliş dalğası qısa müddətdə bütöv Azərbaycan miqyasında aparıcı ideoloji qüvvəyə çevrilərək, real müstəqil dövlətçilik təsisatlarının bərpasını və milli həmrəyliyi sürətləndirdi.

10

## "AZƏRBAYCAN"ın "Zəfər" imzası




"Azərbaycan" qəzetinin fəaliyyətinin ana xəttini hər zaman vətənpərvərlik, milli idrak və dövlətçilik təşkil edib. Birinci Qarabağ savaşından Aprel və Günnüt zəfərlərinə qədər xalqımızın və ordumuzun şücaətləri mütəmadi olaraq qəzetin səhifələrində geniş əksini tapıb. Torpaqlarımız işğal altında olduğu illərdə "Azərbaycan" qəzeti öz publisist yazıları, reportaj və şərhləri ilə Qarabağsız və Şərqi Zəngəzursuz böyüyən yeni nəslin milli şüurunu, vətənpərvərlik ruhunu daim diri tutub, bütöv Azərbaycan ideyasına xidmət edib.

6

## Azərbaycan mediası – beynəlxalq informasiya axınının fəal subyekti



Müasir dünyamızda media fəaliyyəti həm də informasiya savaşının çox vacib elementidir. Dezinformasiya, saxta xəbərlər, manipulyativ informasiya kampaniyaları və kiberhücumlar dövlətlərin milli təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Azərbaycan da uzun illər Ermənistanın məqsədyönlü dezinformasiya siyasəti ilə üz-üzə qalmışdı. Xüsusilə Birinci Qarabağ müharibəsi dövründə beynəlxalq informasiya məkanında Azərbaycana qarşı qərəzli yanaşmalar, saxta məlumatlar və ikili standartlar geniş yayılmışdı. Belə şəraitdə güclü milli medianın formalaşdırılması və dövlətin informasiya siyasətinin müasir tələblərə uyğun qurulması strateji zərurətə çevrilmişdi.

Prezident İlham Əliyev hələ hakimiyyətinin ilk illərindən informasiya diplomatiyasını Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Dövlətimizin başçısının beynəlxalq televiziya kanallarına, nüfuzlu xəbər agentliklərinə və aparıcı qəzetlərə verdiyi müsahibələr Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. O, faktlara əsaslanan arqumentləri, beynəlxalq hüquqa söykənən mövqeyi və siyasi qətiyyəti ilə ölkəmizin maraqlarını ardıcıl müdafiə etdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın ardıcıl hərbi qələbələri ilə yanaşı, informasiya sahəsində əldə etdiyi böyük uğurlarla da tarixə düşdü. Müharibə günlərində Prezident İlham Əliyevin dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə verdiyi müsahibələr vasitəsilə ölkəmizin haqlı mövqeyi bütün dünyaya çatdırıldı.

7

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri

# Azərbaycan-Almaniya münasibətlərində irəliyə doğru böyük addım

## Azərbaycan və Almaniya prezidentlərinin təkbətək görüşü







**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə görüşmək üçün Berlindəki "Villa Borsig" iqamətgahına gəlib.**

AZƏRTAC xəbər verir ki, Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev burada xatirə kitabını imzaladı.

Sonra Azərbaycan və Almaniya prezidentlərinin təkbətək görüşü keçirildi.

## Azərbaycan və Almaniya prezidentlərinin geniş tərkibdə görüşü olub



**İyulun 21-də Berlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Almaniya Prezidenti Azərbaycana səfərini məmnunluqla xatırladı.

Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə etdi.

O, Azərbaycan-Ermənistan sülh gündəliyində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı.

Almaniya Prezidenti Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi qeyd etdi.

Dövlətimizin başçısı da öz növbəsində Frank-Valter Ştaynmayerin ölkəmizə səfərini məmnunluqla xatırladı.

Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rola toxunan Prezident İlham Əliyev ölkəmizin artıq Almaniya və Avstriyaya da qaz ixrac etdiyini dedi.

Söhbət zamanı Azərbaycan ilə Almaniya arasında münasibətlərin dostluq xarakteri daşıdığı qeyd edildi, iqtisadi və biznes əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu bildirildi, dövlətimizin başçısının Almaniyaya bu səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə olundu.

Bu səfər zamanı Azərbaycan-Almaniya əlaqələrinin strateji mahiyyət kəsb etməsi ilə əlaqədar Prezident İlham Əliyev və Kansler Fridrix Mertsin imzalayacağı "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin əhəmiyyəti vurğulandı.

Görüşdə Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri xatırlandı, bu xüsusda Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı qeyd edildi.

Söhbət zamanı Orta dəhlizin əhəmiyyəti və bu dəhlizdə Azərbaycanın önəmli roluna toxunuldu, Yaxın Şərqdə yaranmış vəziyyət barədə fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyevin Berlində rəsmi qarşılanma mərasimi keçirilib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 21-də Berlində rəsmi qarşılanma mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts dövlətimizin başçısını qarşıladı.

Almaniya nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Federal Kansler Fridrix Mertsə təqdim edildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına və Federal Kanslerə raport verdi.

Azərbaycan Respublikasının və Almaniya Federativ Respublikasının Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev və Federal Kansler Fridrix Merts fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

## Təkbətək və geniş tərkibdə görüş

**İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts ilə təkbətək görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, sonra görüş geniş tərkibdə davam etdirildi.

Görüşdə Azərbaycan ilə Almaniya arasında strateji gündəliyə dair imzalanmış sənədin əhəmiyyəti vurğulandı. Həmçinin sənəddən irəli gələrək iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupların yaradılması və bu istiqamətdə sistemli işin aparılmasının vacibliyi qeyd edildi.



Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol qeyd olundu, həmçinin Orta dəhlizin əhəmiyyəti vurğulandı. Eyni zamanda iki ölkə arasında əlaqələrin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunuldu və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Federal Kansler Fridrix Merts Azərbaycanla Ermənistan arasında sülh gündəliyi istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. O, Almaniyanın regionda sülhün gücləndirilməsi üçün səylərini əsirgəməyəcəyini və hər zaman buna dəstək verməyə hazır olduğunu bildirdi.

## Berlində Azərbaycan-Almaniya sənədləri imzalanıb





**İyulun 21-də Berlində Almaniya-Azərbaycan sənədlərinin imzalanması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"ni imzaladılar. Tədbirdə həmçinin Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair Birgə Bəyannamə imzalandı.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya rəsmi səfəri

# Azərbaycan-Almaniya münasibətlərində irəliyə doğru böyük addım

## Prezident İlham Əliyev və Federal Kansler Fridrix Merts mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Federal Kansleri Fridrix Merts Berlində mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar. AZƏRTAC xəbər verir ki, əvvəlcə Almaniyanın Federal Kansleri bəyanatla çıxış etdi.**

### Kansler Fridrix Mertsin bəyanatı



- Xanımlar və cənablar, xoş gəlmisiniz.

Mən bu gün Berlində Azərbaycan Prezidenti İlham Əliyevi salamlamaqdan olduqca məmnunam. Bu gün biz hələ mart ayında planlaşdırılan səfərinizi həyata keçiririk. Lakin səfəri İranla müharibə səbəbindən təxirə salmalı olduq.

Bununla belə, səfər, həmçinin göstərir ki, ölkələrimiz bu günün əsas böhranlarından və müharibələrindən yan keçə bilmir. Bu, həm Orta Şərqə, həm Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsinə aiddir. Həmin müharibələr Almaniyaya və Azərbaycana onların təhlükəsizliyi və iqtisadi maraqları baxımından böyük təsir göstərib. Baxmayaraq ki, hər iki münaqişə təfərrüatlarına görə fərqli ola bilər. Biz istənilən halda danışıqlar yolu ilə həll variantlarını təşviq edirik. Bizi eyni qənaət birləşdirir ki, yekun nəticədə yalnız danışıqlar yolu ilə nizamlama uzunmüddətli sülhü, təhlükəsizliyi və sabitliyi gətirə bilər.

Cənab Prezident, Cənubi Qafqazda sülh, təhlükəsizlik və sabitlik bizim üçün də zəruridir. Almaniya və Avropa İttifaqı həmin geosiyasi baxımdan mühüm bölgədə davamlı dincliyə nail olmaqda çox maraqlıdırlar. Bu səbəbdən, cənab Prezident, biz Sizi Almaniyada salamlamaqdan xüsusi olaraq məmnunuq. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanmasına nail olmağınız münasibətilə Sizi təbrik edirik. Bu, tarixi razılaşmadır. Onilliklər davam etmiş münaqişəni onun sayəsində aradan qaldırmaq fürsəti yaranır. Alman və Avropa perspektivindən nəyi edə bilsək, bundan şad olarıq.

Bölgədə daha böyük sabitlik ölkələrimiz arasında iqtisadi sahədə də geniş əməkdaşlıq üçün yeni imkanlar yaradır. Çox şadam ki, ölkələrimiz arasında münasibətlər yüksələn xətlə inkişaf edir. 2025-ci ilin yazında Prezident Ştaynmayer Azərbaycana səfər etmiş ilk alman dövlət başçısı oldu. Bu il, həmçinin parlamentlərimiz arasında intensiv mübadilələr oldu. Bu gün Birgə Bəyannaməni imzalamaqla biz ikitərəfli münasibətlərimizin daha da genişləndirilməsinin təməl daşını qoyduq. Həmçinin mərasim zamanı Siz də şahidi oldunuz, Azərbaycan-Almaniya Biznes Şurasının yaradılması ilə bağlı razılıq əldə edildi.

Bu, hər iki ölkənin şirkətlərinə verilən mühüm işarədir. Biz Almaniya ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsinə ciddi yanaşırıq. Hazırkı böhran şəraitində xam neftin və "Cənub qaz dəhlizi" ilə təbii qazın təchizatında əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezident, biz bunları təfərrüatı ilə müzakirə etdik. Biz Azərbaycanla əməkdaşlıq yolu ilə enerji təchizatımızı daha da şaxələndirmək istəyirik. Bu gün biz, həmçinin bərpaolunan enerji və hidrogendən istifadənin genişləndirilməsini müzakirə etdik.

Biz həmçinin Azərbaycanın sərmayə proqramına aid təklifinə gəldikdə konstruktiv müzakirələr aparırıq. Bu proqram Azərbaycanda fəaliyyət göstərən alman şirkətləri üçün yeni imkanlar aça bilər. Cənubi Qafqazın Avropa ilə Asiya arasında körpü kimi əhəmiyyəti də artır. Yeni nəqliyyat və ticarət dəhlizləri birgə istifadə etmək istədiyimiz iqtisadi potensialı yaradır. Cənab Prezident, bildiyiniz kimi, kiçik və orta müəssisələr üçün uzun məsafədə sərmayə yatırmaq çox zaman asan olmur. Yerlərdə münasib çərçivə şərtləri hər zaman olduqca vacibdir.

Həmin məsələləri biz bu gün müzakirə etdik. Bu gün imzalanmış iki bəyannamə ilə biz irəliyə doğru böyük addım atdıq. Cənab Prezident, Berlinə səfər etdiyinizə görə Sizə bir daha dərindən minnətdaram. Mən Azərbaycan ilə Almaniya arasında davamlı məhsuldar əməkdaşlığı səbirsizliklə gözləyirəm.

* * *

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

### Prezident İlham Əliyevin bəyanatı



- Sağ olun, cənab Kansler. İlk növbədə, mənə göstərdiyiniz qonaqpərvərliyə görə və rəsmi səfərə dəvət etdiyiniz üçün Sizə təşəkkürümü bildirmək istəyirəm. Yenidən ölkənizdə olmağımdan çox məmnunam. Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. Biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq. Eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsi üçün bu gün imzalanmış Birgə Bəyannamə əminəm ki, çox fəal işləyib yaxşı nəticələr hasil edəcəkdir.

İkitərəfli gündəliyimiz kifayət qədər genişdir. Biz bu barədə Sizinlə həm təkbətək görüşdə, həm də geniş tərkibdə görüş əsnasında fikir mübadiləsi aparmışıq. Almaniya Avropa İttifaqının aparıcı ölkəsi kimi Cənubi Qafqazda öz təsirini artırmaqdadır. Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcəkdir.

Bir çox Almaniya şirkətləri Azərbaycanda uğurla fəaliyyət göstərir. Fəal iş görən şirkətlərin sayı 200-dən çoxdur. Əminəm ki, bugünkü səfərdən sonra onların sayı daha da artacaq. Qarşılıqlı sərmayə qoyuluşu məsələləri müzakirə edilir. Alman şirkətlərinin daha geniş çərçivədə Azərbaycanda fəaliyyəti üçün konkret təkliflər irəli sürülmüşdür.

Siz enerji sahəsindəki əməkdaşlığa toxundunuz. Bu istiqamətdə də müsbət nəticələr var. Bu ildən başlayaraq Azərbaycan öz təbii qazını Almaniyaya ixrac etməyə başlamışdır. Beləliklə, bizim qazımız bu gün Avropa İttifaqına üzv 10 ölkəyə çatdırılır və şübhəsiz, bu, enerji təhlükəsizliyi üçün çox böyük töhfədir. Nəzərə alsaq ki, Azərbaycan öz neftini də Almaniyaya ixrac edir və gələcəkdə "yaşıl enerji"sini də Avropa məkanına çatdırmaq əzmindədir, enerji sahəsində əməkdaşlıq çox genişmiqyaslı olacaqdır.

Bağlantılarla və tranzit imkanları ilə bağlı da Azərbaycan-Almaniya əməkdaşlığının çox böyük əhəmiyyəti var. Çünki Almaniya şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə edib. Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir. Keçən il Orta Asiya məşvərət formatına tamhüquqlu üzv olmaqla, Azərbaycan bir növ Orta Asiya ilə Avropa arasında körpü rolunu oynayır və bu rol getdikcə artacaqdır. Bir çox istiqamətlər üzrə konkret fəaliyyət planı nəzərdə tutulur. Bu gün imzalanmış bəyannamənin icrası ilə bağlı fikir mübadiləsi əsnasında konkret təkliflər irəli sürülmüşdür. Bir neçə İşçi qrup yaradılacaq ki, bu gün imzalanmış sənədlər tezliklə həyatda öz əksini tapsın.

Eyni zamanda Almaniyanın Cənubi Qafqazdakı sülh prosesinə verdiyi töhfəyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Uzun illərdən sonra Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması və sülh sazişinin paraflanması, Vaşinqtonda, Ağ Evdə Prezident Trampın iştirakı və imzası ilə Birgə Bəyannamənin imzalanması faktiki olaraq 30 il davam edən münaqişəyə son qoydu. Azərbaycan bu razılaşmadan dərhal sonra praktiki addımlara keçdi. Bu gün Azərbaycan tərəfindən təchiz edilmiş benzin və dizel yanacağı Ermənistanın enerji təhlükəsizliyinə çox böyük töhfədir. Xüsusilə nəzərə alsaq ki, bu gün neft məhsullarının ixracı və idxalı ilə bağlı bir çox problemlər müəyyən səbəblərə görə mövcuddur və eyni zamanda Azərbaycan ərazisindən Ermənistana tranzit yüklərin göndərilməsi də artıq geniş vüsət alıb. Bu günə qədər 40 min tondan çox tranzit yüklər Azərbaycan ərazisindən keçib.

Yəni biz çox tarixi bir dövr yaşayırıq. Torpaqları uzun illər işğal altında olan Azərbaycan işğala öz gücü ilə son qoydu, ərazi bütövlüyünü bərpa etdi, suverenliyini bərpa etdi. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsini özü icra etdi, Ermənistana sülh təklif etdi və müsbət cavab aldı. Ona görə yenə də deyirəm, Almaniya hökumətinin də bu sahədə rolunu biz yüksək qiymətləndiririk. Danışıqlar prosesində, o cümlədən Almaniyada xarici işlər nazirləri səviyyəsində görüşlər də keçirilmişdir.

Son olaraq, Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunmaq istəyirəm. Bu il biz həm Avropa İttifaqı Şurasının prezidenti cənab Koştanın, həm Avropa Komissiyasının prezidenti xanım fon der Lyayenin Azərbaycana səfərlərinin şahidi olmuşuq. Bu səfərlərin çox böyük siyasi mənası var. Bu, Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirəcək. Almaniya Avropa İttifaqına üzv olan ölkələr arasında lider olduğu üçün burada təbii ki, həm Almaniyanın rolu çox böyükdür, eyni zamanda gələcək əməkdaşlıq üçün də əminəm ki, Almaniya öz səylərini göstərəcək.

Bir daha, cənab Kansler, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və Sizi də Sizin üçün münasib olan vaxtda Azərbaycana rəsmi səfərə dəvət edirəm.

* * *

Daha sonra jurnalistlərin sualları cavablandırılıb.

**Roman QONÇARENKO ("Deutsche Welle"): Sualım Rusiyanın Ukraynaya qarşı müharibəsi ilə bağlıdır. Cənab Federal Kansler, bir neçə gün əvvəl alman mediası yazmışdı ki, Bakıda qeyri-rəsmi alman-rus görüşü baş tutub. Həmçinin qeyd olunur ki, hökumət koalisiyasında olan partiyaların keçmiş yüksəkrütbəli siyasətçiləri görüşdə iştirak edib. Həmin görüşün nəticəsi barədə heç bir məlumat verilməyib. Bununla bağlı burada Berlində ekspertlər arasında iki rəy var. Bəziləri söyləyirlər ki, bu cür görüşlər pərdəarxası olaraq faydalıdır və heç bir ziyan vura bilməz. Digərləri onları tənqid edir və mübahisələndirirlər ki, həmin görüşlər əks nəticə verə bilər. Çünki onlar Rusiyaya zəiflik haqqında işarə göndərə bilərlər. Buna necə baxırsınız?**

**Bir sualım da Prezidentədir. Cənab Prezident, Siz bu yaxınlarda bildirdiniz ki, Azərbaycan ilə Rusiya arasında münasibətlər yenidən tam normallaşıb. Rusiyanın Ukraynaya qarşı müharibəsinə son qoymaq üçün Siz Rusiya Prezidenti Vladimir Putinə nə tövsiyə edərdiniz? Sağ olun.**

**Kansler Fridrix MERTS:** Mən buna çox sadə cavab verə bilərəm. Bu cür görüş haqqında mənim məlumatım yoxdur. Aylar ərzində biz Prezident Putini danışıqlara başlamaq üçün inandırmağa çalışdıq. Avropa səviyyəsində Ukrayna ilə birgə müzakirələr üçün təklifləri dəfələrlə irəli sürmüşük. Prezident Putin bu cür danışıqlarda iştirakdan imtina edir. Buna görə mən, əfsuslar olsun ki, son 14 ay ərzində söylədiklərimi yenə və yenə təkrar edirəm.

Bu müharibəni bitirmək yalnız Rusiya hökuməti və Rusiya Prezidenti ilə bağlıdır. Danışıqlara getmək və lazım gələrsə, sülh danışıqlarına başlamaq yalnız ondan asılıdır. O, bundan imtina etməkdə davam edir. Nə qədər davam edərsə, Rusiya təcavüzü qarşısında Ukraynaya həyat uğrunda mübarizədə dəstək verməkdən başqa seçim yoxdur. Biz bunu edəcəyik. Biz bunu Avropa səviyyəsində əlaqələndirərək edəcəyik. Mən həmin müharibə, onun səbəbləri, gedişatı və mümkün sonu ilə bağlı oxşar mövqeyini bizimlə bölüşdüyünə görə Prezident Əliyevə olduqca minnətdaram. Bunu elə indicə bildirdim.

**Prezident İlham ƏLİYEV:** Bakıda keçirilmiş dediyiniz görüşlərlə əlaqədar deyə bilərəm ki, bu məlumatı biz "The Times" qəzetindən öyrəndik. Bizim bundan xəbərimiz yox idi. Təbii ki, belə mötəbər mətbu orqanda çıxan məqaləyə biz diqqətlə yanaşaraq araşdırma aparmışıq və dünən mən Berlinə gəlməzdən öncə Azərbaycan Dövlət Sərhəd Xidmətindən məlumat istəmişəm ki, "The Times" qəzetində adları keçən şəxslər Azərbaycanda bir vaxtda olublar, yoxsa yox. Sizə onu deyə bilərəm ki, bu məlumat təsdiqləndi. İyulun 12-də Berlin-Bakı reysi ilə iki nəfər tanınmış şəxs, - birinin xanım Merkelin administrasiyasının rəhbəri olduğu haqqında məlumat var, - cənab Pofala və cənab Platsik Bakıya gəlmişdilər və iyulun 14-də Bakıdan Berlinə geri qayıtmışdılar. Eyni zamanda ayın 12-də Rusiyanın keçmiş Baş naziri cənab Zubkov və Rusiya Prezidenti yanında Vətəndaş Cəmiyyəti Şurasının rəhbəri cənab Fadeyev Moskvadan Bakıya gəlmişdilər və biri ayın 13-də, o biri isə ayın 14-də Bakıdan ayrılmışdılar. Bizə bu barədə nə Almaniyadan, nə Rusiyadan hər hansı bir xəbər daxil olmamışdı. Yəni sadəcə olaraq, bizim ərazimiz bizdən xəbərsiz istifadə edilmişdir. Belə bir görüşün olub-olmaması ilə bağlı da mən konkret bir şey deyə bilmərəm. Çünki biz bunu görməmişik. Amma dediyim bu uçuş statistikası deməyə əsas verir ki, belə bir gizli görüş Bakıda keçirilmişdir. Əgər bu görüş Ukrayna-Rusiya müharibəsini sonlandıracaqsa, əlbəttə ki, biz bunu alqışlayırıq.

O ki qaldı, ikinci suala, bilirsiniz, mən o vaxt məsləhət verirəm ki, bu məsləhət məndən xahiş edilir. Mən bu yaxınlarda Qarabağın Şuşa şəhərində Qlobal Media Forumunda oxşar bir sualla üzləşmişdim və demişdim ki, istənilən halda müharibə dərhal dayandırılmalıdır. Bizim əsas məqsədimiz bundan ibarətdir ki, bu müharibə dayansın və bölgədə sülh təmin edilsin.

**Vüqar SEYİDOV (AZƏRTAC): Mən Azərbaycan Dövlət İnformasiya Agentliyini - AZƏRTAC-ı təmsil edirəm. Sualım Sizədir, Kansler Merts. Orta dəhlizin Asiya ilə Avropa arasında ticarət marşrutu kimi əhəmiyyəti get-gedə artır. Azərbaycan onun inkişafında mühüm rol oynayır. Avropa İttifaqında Almaniyanın aparıcı iqtisadi qüvvəsini nəzərə alaraq, bu marşrut boyunca infrastrukturu və logistikanı gücləndirmək üçün iki hökumət Sizin fikrinizcə, necə əməkdaşlıq edə bilər? Sağ olun.**

**Kansler Fridrix MERTS:** Suala görə çox sağ olun. Həmin məsələni dəqiqliklə müzakirə etdik. Biz həmçinin onu Birgə Bəyannaməmizin mövzusuna çevirdik. Prezident Əliyev həmin infrastrukturun genişləndirilməsi barədə mənə maraqlı məlumat verdi. Biz əməkdaşlığımızı, xüsusən də enerji təchizatı sahəsində gələn illərdə intensivləşdirməyi arzulayırıq. Almaniyanın nöqteyi-nəzərindən, bizim idxalın, o cümlədən qaz idxalının şaxələndirilməsində böyük marağımız var.

Mən həmin məsələni bəyanatımda qeyd etdim. Azərbaycan enerjini artıqlaması ilə istehsal edən regiondakı az sayda ölkələrdən biridir. Bu o deməkdir ki, Azərbaycan enerjini istehlak etdiyindən daha çox istehsal edir. Bu baxımdan Azərbaycan Almaniyanın enerji təchizatının təmin edilməsində bizim üçün maraqlı tərəfdaşdır. Bu, xüsusən də Cənubi Almaniyaya aiddir, çünki həmin bölgəyə nəql üçün infrastruktur artıq inkişaf edib və ya genişləndirilə bilər. Buna görə bu, maraqlı müzakirə idi və həmçinin Azərbaycan ilə Almaniya arasında yeni perspektivlər açır.

**Andreas RİNKE ("Reuters"): Sualım Prezidentədir. Kanslerin söylədiklərinin davamı olaraq, bilmək istərdim, cənab Prezident, Azərbaycan hansı həcmdə qaz və nefti Almaniyaya təchiz etməyə hazırdır, buna qadirdir və arzulayır? Təchizat bu ilin əvvəlində başlayıb, lakin ola bilsin, hələ gözəçarpan əlavə potensial da var. Siz hansı həcmi nəzərdə tutursunuz?**

**Prezident İlham ƏLİYEV:** Neft təchizatına gəldikdə isə deyə bilərəm ki, Almaniya ilə bizim ümumi ticarət dövriyyəmiz keçən il təqribən, 1,5 milyard dollar ətrafında idi. Bunun böyük hissəsi Almaniyanın Azərbaycana ixracıdır, qalan hissə isə bizim ixracımız. Bizim ixracımızın da əsas hissəsi xam neftdir. Yəni hesab edirəm ki, Azərbaycan təxminən bir neçə yüz milyon dollar səviyyəsində xam neft təchiz edir və nə qədər lazımdır, o qədər də təchiz edə bilər - həm daxili mənbələrdən, həm də bizim enerji şirkətimiz SOCAR-ın treydinq bölməsindən. Yəni burada hər hansı bir problem yoxdur.

O ki qaldı, təbii qaz məsələlərinə, qeyd etdiyim kimi, biz bu ildən başlayaraq Almaniyaya təbii qaz satmağa başlamışıq. Bizim keçən il ümumi qaz ixracımız 25 milyard kubmetr olub. Onun yarısı Avropa İttifaqı ölkələrinə ixrac edilib. Bildiyimə görə, Almaniya şirkətləri ilə 10 illik kontrakt imzalanmışdır və ilkin həcm 1,5 milyard kubmetrdir. Ancaq bu, təbii ki, arta bilər. Bunun üçün bir neçə məsələ öz həllini tapmalıdır. Birincisi, bizə müraciət olmalıdır, yəni həcmin artırılması üçün. İkincisi, mövcud qaz infrastrukturu genişləndirilməlidir. Çünki bu gün həm TANAP, həm TAP tam gücü ilə işləyir və bu kəmərlərdə boş yer qalmayıb. Avropa məkanında yeni interkonnektorlar lazımdır. Əlbəttə ki, buna vəsait lazımdır. Əsas problemlərdən biri də odur ki, Avropa bankları, xüsusilə Avropa İnvestisiya Bankı yaşıl gündəliyə görə neft-qaz layihələrinə maliyyə dəstəyini dayandırmışdır. Beləliklə, bu gün infrastrukturu - Avropanı qazla təchiz edən infrastrukturu genişləndirmək üçün biz başqa mənbələrdən kreditlər almalıyıq. Yaxşı olardı ki, Avropa bankları öz qərarlarına yenidən baxsınlar. Xüsusilə nəzərə alsaq ki, bu gün Yaxın Şərqdə böhran əfsuslar olsun ki, dərinləşir və ənənəvi təchizat zəncirləri qırılıb. Nəzərə alsaq ki, Rusiyanın neftayırma zavodlarının sıradan çıxarılması ilə əlaqədar ənənəvi müştərilərə Rusiya istədiyi qədər neft məhsullarını ixrac edə bilmir. Bütün bu sonu bilinməyən hadisələr davam edir. Ona görə hesab edirəm ki, "yaşıl gündəliy"i nəzərə almaq şərti ilə bu məsələlərə yenidən baxıla bilər ki, Avropa bankları da neft-qaz layihələrinin işlənməsinə, neft-qaz infrastrukturunun tikintisinə və genişləndirilməsinə vəsait ayırsın. Belə olan halda Azərbaycan Avropa məkanına, o cümlədən Almaniyaya öz qaz ixracını böyük dərəcədə artıra bilər.

**Orxan AMAŞOV ("AnewZ"): Sualım əvvəlki sualın məntiqinə uyğundur və Azərbaycan ilə Almaniya arasında enerji əməkdaşlığına aiddir. Xüsusən də Azərbaycan Almaniyaya bu il təbii qazı təchiz etməyə başlamışdır. Kansler, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunu Avropaya qaz təchizatı baxımından necə dəyərləndirirsiniz? Çox sağ olun.**

**Kansler Fridrix MERTS:** Buna cavab verməkdən məmnunam. Dörd il yarım əvvəl Rusiyadan qaz idxalını dayandırdıqdan sonra biz təbii ki, yeni təchizat mənbələrini axtarmağa başladıq və Azərbaycan bu baxımdan mühüm rol oynayır. Bu, iqtisadi baxımdan bizim üçün maraqlı perspektivdir. Biz həmçinin digər təchizat mənbələrini də axtardıq və müəyyən etdik. Bu baxımdan mən bir daha Prezident Əliyevə təşəkkür edirəm ki, bu məsələni bu gün müzakirə edə bildik və Azərbaycandan daha böyük həcmdə qazın əldə olunması imkanlarını araşdırdıq. Bu həmçinin birgə razılaşmamızın bir hissəsidir və Azərbaycanla aparacağımız növbəti müzakirələrin mövzusu olaraq qalacaq.

# Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında İkitərəfli Tərəfdaşlıq üçün Strateji Gündəlik haqqında Birgə Bəyannamə

Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası (bundan sonra "Tərəflər") Tərəflər arasında uzunmüddətli və dostluq münasibətlərini tanıyırlar. Onlar qarşılıqlı etimada və müxtəlif sahələrdə maraqların üst-üstə düşməsinə əsaslanan ikitərəfli tərəfdaşlıq və əməkdaşlığı dərinləşdirməklə bağlı qarşılıqlı arzularını təsdiqləyirlər. Tərəflər bir-birinin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə hörmətlərini xatırlayaraq, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə, Helsinki Yekun Aktına, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasına, sülhü və təhlükəsizliyi təşviq edən digər beynəlxalq hüquqi sənədlərə birgə sadiqliklərini bir daha təsdiqləyirlər.

Tərəflər Azərbaycan-Ermənistan münasibətlərindəki tarixi irəliləyişi, xüsusilə də 2025-ci il 8 avqust tarixli Vaşinqton Zirvə Görüşünün nəticələrini və Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarını alqışlayırlar. Almaniya Federativ Respublikası iki ölkənin regionda davamlı sülhə nail olmağa hədəflənmiş səylərini tam dəstəklədiyini bir daha təsdiqləyir.

Tərəflər Azərbaycan-Avropa İttifaqı (Aİ) tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayır və siyasi dialoqun və praktik əməkdaşlığın daha da dərinləşdirilməsi məqsədilə artan əməkdaşlığı qeyd edirlər. Onlar, həmçinin yenilənmiş Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetlərinin qəbul edilməsinin və Azərbaycan Respublikası ilə Aİ arasında mövcud dialoq mexanizmlərindən tam həcmdə istifadənin əhəmiyyətini vurğulayırlar. Tərəflər həmçinin Azərbaycan ilə Aİ üzv dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi səylərini yüksək dəyərləndirirlər.

1. Tərəflər aşağıdakı sahələrdə, lakin bununla məhdudlaşmadan, əməkdaşlıq etmək niyyətindədirlər:

a. Siyasi və Diplomatik Əməkdaşlıq: nazirliklər və qurumlar arasında müntəzəm məsləhətləşmələr, yüksəksəviyyəli səfərlərin mübadiləsi; qarşılıqlı faydalı əməkdaşlıq sahələrinin daha da dərinləşdirilməsi üçün məxsusi-məzmunlu yüksəksəviyyəli dialoqlar; ortaq maraq kəsb edən ikitərəfli, regional və beynəlxalq məsələlər üzrə praktiki əməkdaşlığın gücləndirilməsi.

b. İqtisadi və Ticarət Əməkdaşlığı: ikitərəfli ticarətin və sərmayə imkanlarının təşviqi, ikitərəfli iqtisadi əlaqələrin təşviqi mexanizmi kimi ticarət və sərmayə üzrə Almaniya-Azərbaycan Yüksək Səviyyəli İşçi Qrupunun fəaliyyətinin davam etdirilməsi; kənd təsərrüfatı, davamlı iqtisadi inkişaf, "yaşıl enerji", yaşıl və aşağıkarbonlu hidrogen, enerji səmərəliliyi kimi sahələrdə əməkdaşlığın tam potensialından istifadə edərək, bağlantılar və infrastruktur, qaz da daxil olmaqla enerji axınları, iqlim fəaliyyəti və ətraf mühitin mühafizəsi, eləcə də davamlı su ehtiyatlarının idarə olunması kimi qlobal və regional əhəmiyyətli məsələlər üzrə əməkdaşlığın artırılması.

c. Təhlükəsizlik və Müdafiə: insan və narkotiklərin qanunsuz dövriyyəsi, mina təmizləmə sahəsində əməkdaşlıq və yardım da daxil olmaqla regional və qlobal təhlükəsizlik məsələləri üzrə nazirlər səviyyəsində dialoqun davam etdirilməsi; müdafiə sənayesində əməkdaşlığın təşviqi; Müdafiə Akademiyaları və qurumları arasında mütəxəssis və tələbə mübadiləsinin davam etdirilməsi; ortaq narahatlıq doğuran sahələrdə məlumat və ən yaxşı təcrübələrin mübadiləsi.

d. Mədəniyyət, Təhsil, Dil və İnsanlararası mübadilələr: qarşılıqlı anlaşmanı, mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq edən mədəni mübadilə fəaliyyətləri və proqramları; innovativ və rəqəmsal təhsil, peşə təhsili, birgə tədqiqat layihələri və akademik mübadilələr üzrə gələcək əməkdaşlıq imkanları barədə dialoq perspektivləri.

e. Elm, Texnologiya və İnnovasiya: rəqəmsal transformasiya, sənaye modernləşdirilməsi və inkişafda olan texnologiyalar sahəsində əməkdaşlığın təşviqi; təhsil və elm sahələrində əməkdaşlıq.

2. Bu siyasi bəyannaməyə əsasən fəaliyyətlərin həyata keçirilməsi resursların mövcudluğuna tabe və Tərəflərin müvafiq qanun və qaydalarına uyğun olacaqdır.

21 iyul 2026-cı il tarixində Berlin şəhərində ingilis dilində iki nüsxədə imzalanmışdır.

| | |
|---|---|
| **Azərbaycan Respublikası adından** | **Almaniya Federativ Respublikası adından** |
| **İlham ƏLİYEV** | **Fridrix MERTS** |
| **Prezident** | **Kansler** |

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 221** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, №5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, №1, maddə 80, № 2, maddə 178, № 4, maddə 383; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 1 may tarixli 127 nömrəli, 12 may tarixli 141 nömrəli və 15 iyul tarixli 216 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nə aşağıdakı məzmunda yeni qrup əlavə edilsin:

**"QRUP 99**

**XÜSUSİ MƏQSƏDLƏR ÜÇÜN NƏZƏRDƏ TUTULAN MALLAR"**

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nda və 2021-ci il 25 may tarixli 149 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 222** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 235 (Cild I); 2025, № 9, maddə 860, № 12 (II kitab), maddə 1225) ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.5-ci bənddə "qəbul" sözü "yerləşdirilmə və həmin müəssisəni tərk etmə" sözləri ilə, "şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" sözləri "şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin;

1.2. 2.1.1-ci yarımbənddə "qəbul edilmiş" sözləri "yerləşdirilmiş" sözü ilə əvəz edilsin;

1.3. 2.1.2-ci yarımbənddə "qəbul edilmiş şəxslərin sanitariya-gigiyena normalarına uyğun şəraitdə yerləşdirilməsi" sözləri "yerləşdirilmiş şəxslərə sanitariya-gigiyena normalarına uyğun şəraitdə xidmətlərin göstərilməsi" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 25 may tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 5, maddə 528 (Cild I); 2024, № 3, maddə 314) ilə təsdiq edilmiş "Dövlət reabilitasiya müəssisələrinin təşkili və fəaliyyəti Qaydası"nın 5.10-cu bəndinə (birinci halda) "yerləşdirilməsi" sözündən sonra "və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri əlavə edilsin, "şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi" sözləri "şəxsin (ailənin) dövlət sosial xidmət müəssisəsinə yerləşdirilməsi və həmin müəssisəni tərk etməsi, habelə sosial xidmətin göstərilməsi" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 224** **Bakı şəhəri, 20 iyul 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli 234 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 960 (Cild I); 2024, №7, maddə 898; 2025, №12 (II kitab), maddə 1203) ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci sətrə "qaraciyər" sözündən əvvəl "ürək," sözü əlavə edilsin.

2. Yeddinci sətirdən "Müalicəvi" sözü çıxarılsın və həmin sətrə "sümük iliyi" sözlərindən sonra ", kök hüceyrələri" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri zati-aliləri cənab Endi Börnhemə

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin olunmağınız münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz zəngin və xoş ənənələrə əsaslanan Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin hərtərəfli inkişafına xüsusi əhəmiyyət veririk. İqtisadi-ticari əməkdaşlığımızın dinamikası, enerji sahəsində sınaqdan çıxmış strateji tərəfdaşlığımızın gündən-günə dərinləşməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Ölkənizi təmsil edən şirkətlər Azərbaycanda bir sıra vacib layihələrə cəlb olunub və burada ölkə iqtisadiyyatının istər neft, istərsə də qeyri-neft sektorunda səmərəli fəaliyyət göstərirlər. BP şirkəti ilə uzun illərdən bəri davam edən, həm ənənəvi, həm də bərpaolunan enerji sahəsində uğurlu birgə fəaliyyətimizi xüsusi qeyd etmək istərdim. Torpaqlarımızın işğaldan azad olunmasından sonra Azərbaycanın dəvət etdiyi ilk xarici şirkətlər sırasında Birləşmiş Krallığın şirkətlərinin yer alması və bu gün orada aparılan bərpa və quruculuq işlərində yaxından iştirak etməsi ölkələrimiz arasında əməkdaşlığın yüksək səviyyəsindən xəbər verir.

Əminəm ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasında dostluq əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da müvəffəqiyyətlə davam edəcək, tərəfdaşlığımız daha da möhkəmlənəcəkdir.

Sizə bir daha təbriklərimi çatdırır, qarşıdakı məsul fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 iyul 2026-cı il*

# Belçikalıların Kralı Əlahəzrət Filipə

Əlahəzrət!

Belçika Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, Belçika xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyul 2026-cı il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Çin Kommunist Partiyasının nümayəndə heyəti ilə görüşüb



**İyulun 21-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuayın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan-Çin münasibətlərinin dinamik inkişafı və əldə olunmuş nailiyyətlər məmnunluqla qeyd edilib, parlamentlərarası və partiyalararası əməkdaşlığın daha da möhkəmləndirilməsi, iqtisadi, ticarət, təhsil, mədəniyyət, humanitar, o cümlədən gənclər sahəsində əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olunub.

Çin Kommunist Partiyasının (ÇKP) nümayəndə heyətini salamlayan spiker Sahibə Qafarova vurğulayıb ki, Azərbaycan ilə Çin arasında son illərdə bütün istiqamətlər üzrə dinamik inkişaf edən əməkdaşlığın əsasında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri cənab Si Cinpin arasındakı dostluq münasibətləri dayanır.

Bildirilib ki, Azərbaycan hər zaman birmənalı olaraq "Vahid Çin" siyasətini və Çinin ərazi bütövlüyünü dəstəkləyib. Biz də Çinin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndiririk.

Milli Məclisin Sədri Prezident İlham Əliyevin 2025-ci ildə Çin Xalq Respublikasına həyata keçirdiyi səfərlərinin, xüsusən dövlət səfəri zamanı Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın imzalanmasının ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olduğunu qeyd edib.

Sahibə Qafarova parlamentlərarası əlaqələrin Azərbaycan-Çin münasibətlərinin mühüm tərkib hissəsi olduğunu deyib. O, cari ildə Çinə işgüzar səfəri çərçivəsində Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə keçirdiyi görüşdən söz açaraq, parlamentlərarası dialoqun, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla davam etdiyini söyləyib.

Milli Məclisin Sədri Azərbaycan ilə Çin arasında qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqla yanaşı, partiyalararası əməkdaşlığın da uğurla inkişaf etdiyini bildirib. O, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında formalaşmış səmərəli əlaqələrin və imzalanmış Anlaşma Memorandumunun bu əməkdaşlığın daha da genişlənməsinə mühüm töhfə verdiyini vurğulayıb.

ÇKP Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin İnformatika və tədqiqatlar departamentinin direktor müavini Kanq Şuay Çin ilə Azərbaycan arasında münasibətlərin son illərdə uğurla inkişaf etdiyini, iki ölkə rəhbərləri arasında formalaşmış yüksəksəviyyəli münasibətlərin bu əməkdaşlığın möhkəmlənməsində mühüm rol oynadığını qeyd edib.

Kanq Şuay Milli Məclisin Sədri Sahibə Qafarovanın Çin Xalq Respublikasına səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayaraq, onun Azərbaycan ilə Çin arasında, o cümlədən partiyalararası dialoqun inkişafına verdiyi dəstəyi yüksək qiymətləndirib.

Görüşdə Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov dövlətlərarası münasibətlər sistemində siyasi dialoqun, parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışaraq, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini açıqlayıb.

Çinin Azərbaycandakı səfiri Lu Mey Azərbaycanla Çin arasındakı münasibətlərin müxtəlif aspektləri barədə fikirlərini bölüşüb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Baş prokuror Kəlbəcər rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**



İyulun 21-də baş prokuror Kamran Əliyev Kəlbəcər rayonundan olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 17 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***"Azərbaycan"***

# AZƏRBAYCAN XALQI İLHAM ƏLİYEVİ NİYƏ SEVİR



*Medianın İnkişafı Agentliyi 2026-cı ilin birinci yarısında Prezident İlham Əliyevin fəaliyyətinə ölkə vətəndaşlarının münasibətini öyrənmək, bu sahədə dinamika və tendensiyaları təhlil etmək məqsədilə ictimai rəy sorğusu keçirib.*

*Nəticələrdə Prezident İlham Əliyevə respondentlərin etimad səviyyəsi ümumilikdə 87,7 faiz təşkil edir. Bu göstərici ölkədə hər 10 nəfərdən təxminən 9-nun Prezident İlham Əliyevə etimad etdiyini təsdiqləyir.*

*Rəy sorğusunun nəticələrinə əsasən, respondentlərin 93,6 faizi Prezident İlham Əliyevin fəaliyyətini müsbət qiymətləndirir.*

*Etimad və dəstəyin yüksək olduğunu təsdiq edən ən güclü indikatorlardan biri vətəndaşların seçki davranışlarıdır. Belə ki, prezident seçkiləri növbəti bazar günü keçirilsə, rəyi soruşulanların böyük əksəriyyəti - 91,5 faizi seçkilərdə Prezident İlham Əliyevə səs verərdi.*

*Respondentlərin 81,9 faizi Prezident İlham Əliyevi alternativsiz siyasi lider kimi qəbul edir. Bu yanaşma sorğuda iştirak edən bütün sosial-demoqrafik qruplar üzrə müşahidə olunur və ötən dövrlərlə müqayisədə bu göstəricidə artım dinamikası qeydə alınıb.*

❖ ❖ ❖

Sorğunun nəticələri quru rəqəmlərdən ibarət olan adi statistikadır.

**Azərbaycan xalqı isə İlham Əliyevi ürəkdən, səmimi qəlbdən sevir!**

Prezidentimizin sadə insanlar, yaşlılar və uşaqlar, yaralı hərbçilər, şəhid övladları və onların ailə üzvləri, habelə 30 ildən çox davam edən ayrılıqdan sonra doğma yurd-yuvalarına qayıtmış keçmiş məcburi köçkünlərlə çoxsaylı görüşləri zamanı bunu dəfələrlə görmüş, ona ünvanlanan minnətdarlıq ifadələrini, alqışları qulağımızla eşitmişik.

Həm də prezidentliyinin ilk günlərindən başlayaraq davam edən 23 ildə!

*Üstəlik, söylənilənləri təbii və qanunauyğun şəkildə qəbul etmişik.*

**Çünki bu istəyin, bu təşəkkür və minnətdarlıqların arxasında daim real iş, verilən vədlərin icrası, xalqımızın və dövlətimizin rifahı, yüksəlişi naminə atılan konkret addımlar dayanır.**

*Bəs Azərbaycan xalqı İlham Əliyevi niyə sevir?!*

Bu sualı cavablandırmazdan əvvəl ona daha iki sual da əlavə etmək istərdik.

**Birincisi, xalq niyə də İlham Əliyevi sevməsin?!**

**İkincisi, məgər İlham Əliyevi təkcə Azərbaycan xalqımı sevir?!**

Suallara cavab əvəzinə Azərbaycan xalqının müzəffər, şanlı rəhbərinin indiyədək gördüyü işlərə, qazandığı uğur və nailiyyətlərə qısaca nəzər salaq.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyevin həyat və fəaliyyətini nəzərdən keçirərkən belə bir haqlı qənaətə gəlirsən:

**İlham Əliyev, əslində, böyük siyasət üçün doğulmuş, dövlət rəhbəri olmaq üçün yaranmışdır!**

*Bu, gəlişi gözəl ifadə deyil, İlham Əliyevin keçdiyi həyat yolu, dövlətə rəhbərliyi dövründə etdiklərindən doğan təbii və obyektiv qənaətdir.*

Faktlara və hadisələrə yığcam şəkildə nəzər salaq.

**İlham Əliyev görkəmli siyasi xadim, dünyaşöhrətli siyasətçi Ulu Öndər Heydər Əliyevin ailəsində dünyaya göz açmışdır.**

Ulu Öndər Heydər Əliyev həm də Azərbaycanda böyük bir siyasətçilər, dövlət məmurları nəslinin yetişməsində, səmərəli fəaliyyət göstərməsində, dövlətə necə xidmət etmək lazımdır prinsiplərinə yiyələnməsində danılmaz köməyi və əməyi olan dövlət rəhbəridir.

*Bütövlükdə, öz nəhəng fəaliyyəti ilə Ulu Öndər Heydər Əliyev dövlətə və xalqa özünəməxsus xidmət məktəbi də yaratmışdır!*

Bu məktəbə dərin hörmət və sevgi ilə "Heydər Əliyev məktəbi" də deyilir.

**İlham Əliyev "Heydər Əliyev məktəbi"ni əyani şəkildə bitirən yeganə məzundur!**

❖ ❖ ❖

**İlham Əliyev siyasətçi və dövlət xadimi kimi bütün zəruri keyfiyyətlərə malikdir!**

*Uca boy-buxunu, ciddi xarakteri, təmkinli davranışı, doğma dilindən başqa rus, ingilis, fransız, türk dillərinidə sərbəst danışa bilməsi onun hər siyasətçiyə qismət olmayan üstünlükləridir!*

İlham Əliyev daim sinədəftər çıxışlar edir, nitqini cəlbedici və məntiqli, maraqlı qurur, bütün faktları və rəqəmləri əzbərdən səhvsiz, olduğu kimi dinləyənlərə çatdıra bilir və üstəlik, fəaliyyəti dövründə bir dəfə də olsun yanlışlığa, qeyri-dəqiqliyə yol verməyib!

**İlham Əliyev mükəmməl ixtisas təhsili almış, dünyaca məşhur Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən sonra bir müddət həmin təhsil ocağında müəllim işləmişdir və hazırda onun şəkli həmin institutun "Şərəf lövhəsi"ni bəzəyir.**

❖ ❖ ❖

**İlham Əliyevi bir siyasətçi və dövlət xadimi kimi fərqləndirən digər mühüm xüsusiyyətləri onun böyük iradə və qətiyyət sahibi olması, verdiyi sözə daim əməl etməsidir.**

*Məqsədə doğru fəaliyyətində İlham Əliyev heç zaman dayanmır, dönmür, fikrindən daşınmır, səbirlə, inadla daim irəliyə doğru addımlayır!*

Qazandığı möhtəşəm qələbələrin mühüm səbəblərindən biri də məhz budur.

BİR NEÇƏ MİSAL:

"Əsrin müqaviləsi"nin imzalanması ilə bağlı aparılan çətin, gərgin və uzunmüddətli danışıqlarda, habelə onun uğurla başa çatmasında İlham Əliyevin xüsusi xidməti olmuşdur.

Həmin dövrdə Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsində işləyən İlham Əliyev məşhur fikrini də səsləndirmişdi:

*"Neft insanlara xoşbəxtlik də gətirə bilər, bədbəxtlik də. Mən çalışacağam ki, Azərbaycan nefti Azərbaycan xalqına xoşbəxtlik gətirsin".*

**İlham Əliyev vədinə sadiq qaldı, Azərbaycan dövlətinin iqtisadi cəhətdən güclənməsində, xalqın sosial rifahının yüksəldilməsində neft amilindən bacarıqla istifadə etdi.**

Bu gün isə qeyri-neft sektorunun yüksəlişinə böyük diqqət yetirir.

*İlham Əliyev ilk dəfə Prezident seçiləndə Azərbaycan xalqına bir neçə vəd də vermişdi.*

Onlardan biri məcburi köçkünlərlə bağlı idi:

*"Çadır şəhərciklərində bir nəfər də olsun məcburi köçkün yaşamayacaqdır!"*

**Sonra 116 yaşayış kompleksi inşa etdirərək məcburi köçkünlərin həyat şəraitini əsaslı şəkildə yaxşılaşdırdı.**

Digər vəd: *"Regionların elektrik enerjisi ilə təchizində fasilələr aradan qaldırılacaqdır".*

Kənd təsərrüfatı işlərində və məişətdə böyük çətinliklərə səbəb olan belə fasilələr nəinki aradan qaldırıldı, artıq Azərbaycan Qara dənizin dibi ilə Avropaya "yaşıl enerji" ixracına hazırlıq görür.

❖ ❖ ❖

**İlham Əliyevi dünya həm də verdiyi sözü tutan dövlət başçısı kimi tanıyır!**

Bu söz istər şifahi şəkildə deyilsin, istərsə də kağız üzərindəki müqavilə və ya sazişin axırında olsun.

*Prezidentimizin dünyaca məşhur "Sözümüz imzamızdır" kəlamı da məhz bu sözübütövlükdən yaranıb!*

İlham Əliyev 2003-cü ildə dövlət başçısı seçiləndə 20 faiz ərazimiz düşmən işğalında idi və ATƏT-in acı bağırsağa çevrilən "sülh danışıqları" davam edirdi.

Həmsədr dövlətlər isə Azərbaycanı Ermənistanla "dil tapmağa", "razılığa gəlməyə" səsləyirdilər.

**İlham Əliyev isə ilk günlərdən qətiyyətli və barışmaz mövqeyini açıq şəkildə bildirdi:**

* "Biz bir qarış torpağımızı da kimsəyə güzəştə getməyəcəyik".
* "Biz Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik".
* "Biz nəyin bahasına olursa-olsun torpaqlarımızı düşmən işğalından azad edəcəyik".

*İlham Əliyev Azərbaycan xalqına verdiyi bu vədi də "dəmir yumruğ"u ilə gerçəyə çevirdi!*

❖ ❖ ❖

**İlham Əliyev həm də böyük qurucu və yaradıcıdır.**

Hansı sahənin inkişafını təmin etmək istəyibsə, qısa zamanda ona nail olub.

*İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidenti seçiləndə ölkədə idman bərbad vəziyyətdə idi.*

Təcrübəli məşqçilərin bir qismi iş dalınca müxtəlif ölkələrə üz tutmuş, bəzi azərbaycanlı idmançılar digər dövlətlərin bayrağı altında yarışlara çıxmağa başlamış, Tofiq Bəhramov adına Respublika Stadionu isə "tolkuçka"ya (bazara) çevrilmişdi.

İlham Əliyev qısa müddətdə gedənləri geriyə qaytardı, idman meydançalarını və stadionları əvvəlki vəziyyətinə gətirdi, gənclər arasında böyük ruh yüksəkliyi yaradaraq onları idmana həvəsləndirdi, paytaxt Bakıda və regionlarda olimpiya idman kompleksləri inşa etdirdi, bu sahədə ciddi dönüşə və irəliləyişə nail oldu.

* 2015-ci ildə Azərbaycan dünyada ilk dəfə I Avropa Oyunlarını ən yüksək səviyyədə təşkil edərək yeni trend yaratdı!
* 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarını keçirərək islam dünyasına böyük hədiyyə etdi!

**İlham Əliyevin çoxcəhətli fəaliyyəti sayəsində Azərbaycan həm də dünyada idman dövləti kimi tanınır və Azərbaycan idmançılarının beynəlxalq yarışlarda, Avropa və dünya birinciliklərində, Olimpiya oyunlarında qazandıqları qızıl, gümüş və bürünc medalların sayı-hesabı yoxdur!**

❖ ❖ ❖

2000-ci ilin parlament seçkilərində deputat mandatı qazanan cənab İlham Əliyevə çox keçmədən Milli Məclisin AŞPA-dakı deputat qrupuna rəhbərlik həvalə olundu.

*İlham Əliyev buradakı səmərəli, prinsipial və qətiyyətli fəaliyyəti ilə beynəlxalq qurum və təşkilatlarda dövlətin və xalqın maraqlarının necə bacarıqla və uğurla təmin edilməsinin nümunəsini yaratdı.*

**İlham Əliyev biz jurnalistlərin də yaxın dostu, sevimlisi və hamisidir.**

O, dəfələrlə "Jurnalistlərin dostu" mükafatına layiq görülmüşdür.

2005-ci il iyulun 22-də Mətbuat Şurası İdarə Heyətinin üzvləri ilə görüşü zamanı jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün ona müraciət olundu.

Elə həmin gün - görüşdən 5-6 saat sonra "Gülüstan" sarayında keçirilən yubiley təntənəsində cənab İlham Əliyevin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" sərəncamı elan olundu və bu məqsədlə dövlət büdcəsindən 5 milyon manat vəsait ayrıldı.

*Beləliklə, yüzlərlə jurnalist şəxsi mənzilə sahib olaraq kirayəçi əzabından qurtuldu!*

❖ ❖ ❖

**İlham Əliyev Azərbaycanın müstəqil daxili və xarici siyasətini müəyyən edən, dünya dövlətləri və beynəlxalq təşkilatlarla münasibətlərdə yalnız dövləti və milli maraqları əsas tutan ən yüksək reytinqli dövlət başçılarındandır.**

O, yorulmadan, gərgin və səmərəli fəaliyyət göstərməyi, ən yüksək nəticəyə nail olmağı hamıdan yaxşı bacarır. Qısa müddət ərzində Azərbaycanı uğurla dünya birliyinə inteqrasiya edib, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvünə çevirib, dünyanın maraqları ilə ölkəmizin maraqlarını üzvi surətdə uzlaşdırıb!

**İlham Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərinin sevilən və arzuolunan dəvətlisinə çevrilib!**

İndiyədək dünyanın elə bir dövləti yoxdur ki, onun ən yüksəksəviyyəli rəsmisi ölkəmizə qonaq gəlməsin.

Azərbaycan həm də beynəlxalq tədbirlərə qonaqpərvərliklə evsahibliyi edən məkandır.

Cənubi Qafqazın ən güclü və modern dövləti sayılan Azərbaycanda artıq yeni islahatlara start verilmişdir.

**İlham Əliyevin iqtisadi sahədə nail olduğu uğurları saymaqla qurtarmaz!**

Onun rəhbərliyi dövründə ölkə üzrə ÜDM istehsalı dəfələrlə artıb, işsizlik və yoxsulluq 5 faizədək azalıb. Yeni sahibkarlıq təbəqəsi yaranıb və dövlət qayğısı ilə əhatə olunub.

Nəqliyyat, enerji təhlükəsizliyini təmin edən Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərini işə salaraq, Bakını beynəlxalq logistika mərkəzinə çevirib.

❖ ❖ ❖

**İlham Əliyev xalqın mədəni və milli-mənəvi dəyərlərinə daim hörmət və ehtiramla yanaşır.**

Onun gördüyü işlər sayəsində Azərbaycan dünyada tolerant, multikulturalizm ənənələrinə sadiq nümunəvi dövlət kimi tanınır.

Xalqımız bütün dinlərə və mədəniyyətlərə eyni gözlə baxır, heç bir ayrı-seçkiliyə yol vermir.

* Cənab İlham Əliyevin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə dünyanın ən qədim məscidlərindən biri sayılan Şamaxı məscidi bərpa olunaraq fəaliyyətə başlamışdır;
* Ölkə paytaxtında sinaqoq, katolik və pravoslav kilsələri fəaliyyət göstərir, Şəkidəki Qafqaz Alban kilsəsi, Suraxanıdakı qədim atəşpərəstlik məbədi, Göygöldəki Alman Lüteran məbədi təmir edilərək tarixi abidə kimi yaşadılır;
* Novruz bayramı, Azərbaycan muğamı, saz sənəti, tar ifaçılığı, habelə Qobustan Milli Tarix-Bədii, İçərişəhər Dövlət Tarix-Memarlıq qoruqları UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınmışdır.

**İlham Əliyev BMT-nin, Avropa Şurasının, Avropa İttifaqının, İslam Əməkdaşlıq Təşkilatının, İqtisadi Əməkdaşlıq Təşkilatının, Davos İqtisadi Forumunun və digər qurumların tribunasından bacarıqla istifadə edərək xalqımızın və dövlətimizin maraqlarını qoruyur.**

❖ ❖ ❖

**İlham Əliyev həm də möcüzələr yaratmağa qadir dövlət rəhbəridir!**

Biz 44 günlük müharibədə və ondan sonrakı dövrdə dəfələrlə bunun şahidinə çevrildik.

* İlham Əliyev "dəmir yumruğ"u ilə 30 illik işğala, ikiəsrlik Qarabağ münaqişəsinə son qoydu!
* İlham Əliyev 44 gündə Azərbaycan xalqını qalib xalqa çevirdi!
* İlham Əliyev Azərbaycan xalqını məşəqqətli məcburi köçkün həyatından, vətən həsrətindən qurtardı.
* İlham Əliyevin sərkərdəliyi ilə 2023-cü il aprelin 23-də möhtəşəm hərbi əməliyyat keçirilərək şər yoluna çevrilən Laçın dəhlizi birdəfəlik qapandı.
* Həmin il sentyabrın 19-20-də cəmi 23 saat çəkən hərbi əməliyyat nəticəsində Azərbaycanın dövlət suverenliyi və konstitusiya əsasları bərpa olundu, ölkə qanunları ilə yaşamaq istəməyən erməniəsilli insanlar isə dinc şəkildə ərazilərimizi tərk etdilər.
* Daha bir il sonra - 12 iyun 2024-cü ildə isə Rusiya sülhməramlı kontingenti torpaqlarımızdan birdəfəlik çıxarıldı.

İlham Əliyevin müdrikliyi və uzaqgörənliyi, qətiyyət və əzmkarlığı sayəsində Azərbaycan öz ərazisində bir nəfər belə separatçının və əcnəbi əsgərin olmadığı ölkəyə çevrilib!

❖ ❖ ❖

**İlham Əliyev birinci dəfə dövlət başçısı seçiləndə hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağına söz vermişdi.**

Bu gün də öz vədinə sadiqdir.

*Bütövlükdə cənab İlham Əliyev fəaliyyətinin bütün dövrlərində hər bir azərbaycanlının yanında olub, ölkədəki hər bir insanın dövlətin mövcud imkanlarından lazımınca bəhrələnməsinə şərait yaradıb.*

Azərbaycanı dünyada söz sahibinə çevirən, Cənubi Qafqazın lider dövləti statusunu qazandıran, Türk Dövlətləri Təşkilatının yaranması, əlbir və əlaqəli hərəkət etməsi üçün əlindən gələni əsirgəməyən cənab İlham Əliyev eyni zamanda Azərbaycan xalqına illər öncə verdiyi daha bir vədi layiqincə yerinə yetirir:

**Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirərək "Böyük Qayıdışa dair I Dövlət Proqramı" həyata keçirilməsini, Vətən həsrəti çəkən insanların tezliklə doğma el-obalarına qayıtmasını sürətlə reallaşdırır.**

❖ ❖ ❖

Azərbaycan xalqı 23 illik prezidentliyi dövründə İlham Əliyevi dönə-dönə yoxladığı, verdiyi vədlərə sahib çıxdığını bildiyi, dövləti bütün təhlükələrdən qoruyaraq məharətlə idarə etdiyi, müdrik və uzaqgörən daxili və xarici siyasət yeritdiyi, 30 illik işğala son qoyduğu və xalqın həyat şəraitini əsaslı şəkildə yaxşılaşdırdığı üçün sevir və ona inanır!

* Əgər rəhbər doğma Vətənini daim yüksəldərək onu inkişaf etdirirsə, onu niyə sevməyəsən?!
* Əgər rəhbər ilbəil xalqını daha yaxşı yaşadaraq onun istəklərini gerçəyə çevirirsə, onu niyə sevməyəsən?!
* Əgər rəhbəri bütün türk dünyası sevir və fəaliyyətini yüksək qiymətləndirirsə, dünyanın görkəmli siyasi xadimləri onun fəaliyyətinə böyük dəyər verirsə, onu niyə sevməyəsən?!

**Əslində, bu sevgini cənab İlham Əliyev öz işi, fəaliyyəti, əməlləri, inkişafımıza verdiyi dəyərli töhfələri ilə qazanır!**

Xalqın ürəyində əbədi yer tutan tükənməz ehtiram və sevgini!

**Bəxtiyar SADIQOV**

## Azərbaycan Milli Mətbuatı - 151






# "AZƏRBAYCAN"ın "Zəfər" imzası

**Tarixin təkrarolunmaz bir hikməti var ki, bəzi nəşrlər, sadəcə, xəbər daşıyıcısı kimi doğulur, bəziləri isə millətin taleyi və zəfərləri ilə eyni gündə dünyaya göz açır. 1918-ci ilin 15 sentyabrında Bakı düşmən işğalından azad edilib bayrağımız paytaxtda dalğalandırılanda, həmin tarixi günün al şəfəqləri içində bir mətbuat möcüzəsi də həyata vəsiqə qazandı: "Azərbaycan" qəzeti!**

Həmin tarixi gündə mətbuatımızın fədakar mühərrir və publisistlərinin qələmindən süzülən ilk nüsxələr azadlığın, hürriyyətin və istiqlalın carçısına çevrildi. Cəmi iki il sürən fəaliyyət dövründə qələmini istibdadı yıxan külüngə çevirən "Azərbaycan", 70 illik sovet qadağasından sonra yenidən dirçələrək müstəqil dövlətimizin, suverenliyimizin və bütövlüyümüzün rəsmi atributu kimi adını tarixə yazdırdı.

### Vətənpərvərlik, milli idrak və dövlətçilik

Ərazilərimizin işğala məruz qaldığı, bir milyondan çox həmvətənimizin qaçqın və məcburi köçkün düşdüyü, daxili xaosun ölkəni sarsıtdığı o ağır illərdə "Azərbaycan" qəzeti xalqın faciəsini səhifələrinə həkk edən canlı şahid oldu.

"Azərbaycan" qəzetinin fəaliyyətinin ana xəttini hər zaman vətənpərvərlik, milli idrak və dövlətçilik təşkil edib. Birinci Qarabağ savaşından Aprel və Günnüt zəfərlərinə qədər xalqımızın və ordumuzun şücaətləri mütəmadi olaraq qəzetin səhifələrində geniş əksini tapıb. Torpaqlarımız işğal altında olduğu illərdə "Azərbaycan" qəzeti öz publisist yazıları, reportaj və şərhləri ilə Qarabağsız və Şərqi Zəngəzursuz böyüyən yeni nəslin milli şüurunu, vətənpərvərlik ruhunu daim diri tutub, bütöv Azərbaycan ideyasına xidmət edib.

O çətin illərdə qəzetin hər bir səhifəsi təkcə informasiya daşıyıcısı deyil, həm də itirilmiş yurd yerlərimizin canlı ensiklopediyası, unutmağa imkan verməyən mənəvi irs idi. Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Cəbrayılın, Füzulinin... tarixi, mədəniyyəti, təbiəti və tanınmış şəxsiyyətləri haqqında dərc olunan silsilə məqalələr, xatirələr doğma torpaqları görməyən gənc nəslin təxəyyülündə həmin coğrafiyanı qarış-qarış canlandırırdı. Qəzetin qələm sahibləri oxucuya, sadəcə, həsrəti yox, həm də mütləq qayıdış inamını aşılayırdılar.

"Azərbaycan" qəzeti illərlə səbir və təmkinlə Böyük qayıdışın mənəvi-ideoloji bünövrəsini qoydu, cəmiyyətdə Vətən sevgisini və mübarizə əzmini daim alovlandırdı.

İşğal illərində sözlə, qələmlə qorunan o vətənpərvərlik ruhu illər sonra səngərdə real qəhrəmanlığa, Zəfər salnaməsinə çevrildi və "Azərbaycan"ın illərlə xidmət etdiyi bütöv Vətən amalı reallığa qovuşdu.

2020-ci ilin 44 günlük Vətən müharibəsində "Azərbaycan" qəzetinin əməkdaşları, sözün həqiqi mənasında, qələmlərini süngüyə çevirdilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Qarabağ Azərbaycandır!" nidasını, dövlət başçısının sosial şəbəkələr üzərindən verdiyi Qələbə müjdələrini xalqın böyük coşqusu ilə bir ahəngdə oxuculara çatdıran redaksiya heyəti tarixi zəfərin fəal salnaməçisinə çevrildi.

Həmin günlərdə redaksiya əməkdaşlarının qələmə aldıqları məqalələrdə, reportajlarda İkinci Qarabağ savaşının mənzərəsi dəqiqliyi ilə tarixə həkk edildi. Arxa cəbhədə düşmənin raket atəşinə tutduğu dinc şəhər və kəndlərimizdən hazırlanan materiallar isə düşmən terrorunu ifşa edən sənədli yaddaşa çevrildi. Bu baxımdan, "Azərbaycan" qəzeti gələcək nəsillər üçün Zəfər tariximizin əvəzsiz mənbəyidir.

2023-cü ilin sentyabrında keçirilən birgünlük lokal antiterror əməliyyatı ilə Azərbaycan öz suverenliyini ölkənin hər bir qarışında tam təmin etdi, Xankəndidə, Xocalıda, Əsgəranda, Xocavənddə və Ağdərədə üçrəngli bayrağımız qürurla dalğalandı. Bu unudulmaz hadisə "Azərbaycan" qəzetinin səhifələrində Zəfər salnaməsinin ən zirvə nöqtəsi kimi tarixləşdi. Müzəffər Ali Baş Komandanın Xankəndi şəhərində bayrağımızı ucaltması, tarixi ədalətin bərpa olunması xəbərlərini böyük coşqu ilə oxuculara çatdıran qəzetimiz bir əsr öncə cümhuriyyət qurucularının qəlbində tutuşan tam və bütöv Azərbaycan idealının reallığa qovuşmasını bütün təfərrüatı ilə gələcək nəsillərin yaddaşına ötürdü.

### Qürurverici səhifələr

İşğaldan azad edilmiş torpaqlara həyatın qayıdışını əks etdirən rubrikalar qəzetin ən kövrək və qürurverici guşələridir. "Biz qayıtdıq, Vətən!", "Şəhidlər ölməz, vətən bölünməz", "Tarix yazan oğullar", "Zəfər zirvəsini fəth edənlər", "Biz daha köçkün deyilik", "Qarabağ söhbətləri", "Yurdu yaşadan qəhrəmanlar" kimi silsilə rubrikalar altında yüzlərlə yazı dərc olunub. Şəhidlərimizin əziz xatirəsi, qazilərimizin rəşadəti və Böyük qayıdışın möhtəşəm mənzərələri bu səhifələrdə canlanır.

Xüsusilə redaksiyanın keçmiş məcburi köçkün olan jurnalistlərinin Qarabağ və Şərqi Zəngəzurun bərpası, doğma yurd yerlərinə dönən insanların sevinci haqqında hazırladıqları reportajlar ayrıca diqqət çəkir. Onilliklərlə həsrətini çəkdikləri ata-baba torpaqlarına qədəm basan jurnalistlərin duyğuları, göz yaşları və qürur hissi birbaşa oxucuya keçir, insanı həm qüssələndirir, həm də sonsuz bəxtəvərliklə qürurlandırır. Bu gün 108 yaşlı "Azərbaycan" qəzeti cənnətə çevrilən Qarabağ və Şərqi Zəngəzurun yeni növrağını parlaq təcəssüm etdirir.

Mənəvi varislik və ehtiram ənənəsi redaksiyada hər zaman uca tutulur. Qəzetin əməkdaşı olmuş şəhid Elgün İsmayılovun xatirəsi redaksiyada həmişə dərin ehtiramla yad olunur. Hər il onun doğum günündə İkinci Şəhidlər xiyabanında başlayan anım mərasimi redaksiyada keçirilən vətənpərvərlik mövzusundakı yaradıcılıq müsabiqəsinin yekunları ilə davam edir. Bu, qələmlə silahın, mətbuatla vətənpərvərliyin qırılmaz bağının əyani göstəricisidir.

22 İyul - Milli Mətbuat və Jurnalistika Gününü qeyd etdiyimiz bu təntənəli gündə bir daha əminliklə demək olar ki, əsrlər boyu söz sarayında mübarizə aparan mətbuat fədailərimizin ən böyük arzusu Azərbaycanı bütöv və suveren görmək olub. Biz müasir mətbuatın nümayəndələri olaraq bu ali arzunun gerçəkləşdiyi, Zəfər günəşinin işıqlandırdığı müstəqil Azərbaycanda yaşamaq və yaratmaq xoşbəxtliyinə nail olmuşuq.

108 yaşlı "Azərbaycan" qəzeti bu gün də bütöv Vətənin səsi, müasir dövrün salnaməçisi kimi öz müqəddəs missiyasını ləyaqətlə davam etdirir və "Zəfər" möhürlü yazıları ilə qürurverici tariximizi gələcək nəsillərə çatdırır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Yeni məşğulluq strategiyası əhalinin sosial güvənliyini daha etibarlı təmin edəcək

**Azərbaycanda əhalinin məşğulluğunun təmin edilməsi ən ümdə prioritetlər sırasında olan, bu səbəbdən də gündəmdən düşməyən məsələdir. Bu, Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin, eləcə də həyata keçirilən sosial islahatların ayrılmaz hissəsini təşkil edir. Ötən iki onillikdən çox vaxt ərzində bu istiqamətdə kompleks tədbirlər həyata keçirilib və yüksək nailiyyətlər əldə olunub.**

Ölkəmizdə əmək ehtiyatlarından səmərəli istifadə, əhalinin məşğulluq və sahibkarlıq imkanlarının genişləndirilməsi, layiqli əməyin dəstəklənməsi, işçi qüvvəsinin rəqabətqabiliyyətliliyinin artırılması və əmək məhsuldarlığının yüksəldilməsi hesabına iqtisadi inkişafın təmin olunması milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində başlıca məqsədlər kimi müəyyən edilib. Həyata keçirilən çoxşaxəli tədbirlər sayəsində işsizliyin səviyyəsi getdikcə aşağı düşüb və indi 5 faiz civarındadır. Əhalinin məşğulluğunun təmin edilməsi davamlı xarakter daşıyaraq yenə də dövlətin diqqət mərkəzində dayanır. Məşğulluğun artırılması üçün daim yeni yollar axtarılır, ehtiyat mənbələri nəzərdən keçirilir, məsələyə günün tələbləri baxımından yanaşılır.

Bu il iyulun 20-də Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi sözügedən sahədə atılan növbəti mühüm addımdır. Sərəncamda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tapşırılıb ki, sənəddə nəzərdə tutulmuş tədbirlərin icrasını əlaqələndirsin və nəzərdə tutulmuş tədbirlərin icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin. Nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirəcək.

"Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nda 6 prioritet istiqamətdə tədbirlərin görülməsi təmin ediləcək. Belə ki, məşğulluqyönümlü iqtisadi inkişaf siyasəti həyata keçiriləcək, mikro, kiçik və orta sahibkarlıq dəstəklənəcək. Əmək bazarının tənzimlənməsi sahəsində normativ-hüquqi baza və institusional struktur təkmilləşdiriləcək. İşçi qüvvəsinin bacarıqları inkişaf etdiriləcək. Əmək standartları təkmilləşdiriləcək.

Tədbirlər Planına əsasən, eləcə də aktiv məşğulluq tədbirlərinin əhatə dairəsi genişləndirilməli və səmərəliliyi artırılmalı, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların əmək bazarına inteqrasiyası gücləndirilməlidir. Həmçinin sosial dialoq inkişaf etdiriləcək və qeyri-formal əmək münasibətlərinin qarşısı alınacaq. Sənədə əmək bazarının monitorinqi və proqnozlaşdırılması sisteminin inkişaf etdirilməsi kimi istiqamətlər də daxildir.

Sənəd regionlarda gənclərin startap layihələrinin dəstəklənməsi, özünüməşğulluq proqramına cəlb olunan şəxslərin biznes subyektləri kimi formalaşdırılmasını təşviq edən yeni mexanizmlərin yaradılmasını nəzərdə tutur. Tədbirlər Planına əsasən, 2026-2030-cu illərdə dayanıqlı iş yerlərinin yaradılması məqsədilə KOB subyektləri üçün keyfiyyətli məsləhət xidmətlərinə çıxış imkanları, aqrar sektorda əmək məhsuldarlığının artırılması məqsədilə müasir texnologiyaların tətbiqi genişləndiriləcək. Xüsusilə kənd yerlərində turizm infrastrukturunun inkişafı sahəsində tədbirlər həyata keçiriləcək. "İşəgötürənlər və sahibkarlar birlikləri haqqında" qanun layihəsi hazırlanacaq, əmək miqrasiyası üzrə qanunvericilik təkmilləşdiriləcək, iş yerində öyrənmə (usta yanında şagirdlik və təcrübəkeçmə) üzrə yeni mexanizmin yaradılması üçün normativ-hüquqi baza yaradılacaq.

Prioritetlərdən birinə nəzər yetirək. Bu prioritetdə regionlarda investisiya fəallığının stimullaşdırılması, istehsal olunan malların və xidmətlərin daxili və xarici bazarlara çıxışının dəstəklənməsi üçün tədbirlər nəzərdə tutulur. Yekun nəticədə KOB subyektlərinin dayanıqlığı gücləndiriləcək, iş yerləri qorunub saxlanılacaq və onların sayı artırılacaq.

Digər bir məsələ isə özünüməşğulluq proqramına cəlb olunan şəxslərin biznes subyektləri kimi formalaşdırılmasını təşviq edən yeni mexanizmlərin yaradılmasıdır. Bunun nəticəsində özünüməşğulluq proqramı çərçivəsində yaradılmış biznes subyektlərinin məşğulluğa töhfəsi artırılacaq.

Tədbirlər Planında sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərə də xüsusi diqqət ayrılıb. Onlar üçün əmək bazarına çıxışının artırılması üçün aktiv məşğulluq tədbirlərinin səmərəliliyi artırılacaq. Nəticədə aktiv məşğulluq tədbirlərinə cəlb olunanların sayı artacaq.

2026-2030-cu illərdə həmçinin məşğulluq sahəsində göstərilən xidmətlərin elektronlaşdırılmasının genişləndirilməsi nəzərdə tutulub. Məşğulluğun təmin edilməsi prosesində süni intellektə əsaslanan xidmətlər yaradılacaq. Peşə hazırlığı mərkəzləri şəbəkəsi genişləndiriləcək. Beynəlxalq təcrübə əsasında çevik iş vaxtı rejimi modelləri yaradılacaq. "Peşələr üzrə elektron atlas" informasiya sistemi fəaliyyət göstərəcək.

Peşə və kvalifikasiya standartları davamlı olaraq yenilənəcək. "Yaşıl iqtisadiyyat"a keçid kontekstində müasir bacarıqların əldə olunması məqsədilə peşə hazırlığı proqramları təkmilləşdiriləcək. Dual peşə təhsili modelinin əhatə dairəsi genişləndiriləcək. Regionlarda işsiz və işaxtaran şəxslər (xüsusilə gənclər) üçün onlayn və hibrid təlimlər təşkil olunacaq.

Eləcə də "Qeyri-formal məşğulluğa nəzarət" vahid elektron informasiya ehtiyatından istifadə etməklə əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlər görüləcək.

Dövlətimiz uşaq müəssisələrindən məzun olmuş əməkqabiliyyətli şəxslərin məşğulluğunun dəstəklənməsi üzrə tədbirlərin həyata keçirilməsini də zəruru hesab edib. Belə ki, təhsil müəssisələri tərəfindən məzunların əmək bazarına adaptasiyası vəziyyətinin öyrənilməsi üzrə dövri müayinələr aparılması və s. tədbirlərin görülməsi nəzərdə tutulur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Sinxua" Agentliyi Qlobal Media Forumunda iştirak edən Çin jurnalistinin Şuşa haqqında oçerkini dərc edib

**Çinin rəsmi "Sinxua" Agentliyi Qlobal Media Forumunda iştirak edən çinli jurnalist Liu Çuçenin Şuşa haqqında geniş oçerkini dərc edib.**

AZƏRTAC xəbər verir ki, oçerkdə qeyd olunub: "Şuşada gəzinti zamanı tarixi məhəllələrin və mədəni abidələrin bərpasında Qarabağa xas olan ənənəvi şəhərsalma planına uyğun yerli tikinti materiallarından və memarlıq elementlərindən istifadə edilməsinin şahidi olduq. Müasir mühəndislik həlləri və enerjiyə qənaət edən texnologiyalarla birlikdə yeni binalarda yerli daş və ənənəvi memarlıq elementlərindən də geniş istifadə olunur. Bu yanaşma yeni tikililərlə tarixi şəhər mühiti arasında kəskin vizual təzadları aradan qaldırır".

Çinli jurnalist diqqətə çatdırır ki, bərpa işləri zamanı şəhərin ümumi inkişaf planının tələbləri yerinə yetirilir. Turizm infrastrukturu və ictimai binalar mövcud inkişafla ahəngdar şəkildə birləşir və onların hündürlüyü Şuşanın tarixi siluetini pozmur. Eyni zamanda binaların daxili məkanları rahatlıq və ictimai istifadə üçün müasir tələblərə cavab verir, tarixi görünüşün qorunmasının müasir həyatın ehtiyacları ilə birləşdirilməsinə imkan yaradır.

Müəllif qeyd edir ki, bu yanaşmanın daha bir nümunəsi "Şuşa Hotel-Konqres Mərkəzi Kompleksi"dir. Ziyarətçilər arxeoloqlar tərəfindən qazılmış qədim şəhərin qalıqlarını görə biləcəkləri hündür şüşə qalereyadan içəriyə daxil olurlar.

Oçerkdə bildirilir ki, bərpa olunmuş bir çox tarixi malikanələrə yeni həyat verilib. Bu gün orada muzeylər, etnoqrafik




eksponatlar, görkəmli mədəniyyət xadimlərinə həsr olunmuş xatirə evləri və müntəzəm olaraq təşkil edilən muğam konsertləri, xalq sənəti sərgiləri və ziyarətçiləri Qarabağın zəngin mədəni irsi ilə tanış edən digər tədbirlərə evsahibliyi edən mədəniyyət mərkəzləri yerləşir.

Oçerkdə qeyd olunur: "Belə yerlərdən biri mərkəzi meydanda yerləşən tarixi - XIX əsrə aid Ağa Qəhrəman Mirsiyab oğlunun karvansarasıdır. Bərpadan sonra bina muzeyə çevrilib. "Sinxua" müxbirinin səfəri zamanı orada Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevə və Şuşaya həsr olunmuş fotosərgi keçirilirdi".

Jurnalist yazır ki, Şuşa üçün köhnə və yeni memarlığın vəhdəti təkcə şəhər və ya mədəni əhəmiyyətlə kifayətlənmir. Bu, silahlı münaqişə dövrünü yaşamış şəhər üçün həm də bərpa və dinc gələcəyin rəmzinə çevrilib.

Müəllif daha sonra qeyd edir: "Sonuncu Qarabağ xanının qızı və XIX əsrin görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın evinin şəklini çəkərkən girişdəki kiçik bir lövhə diqqətimi çəkdi: "Yoxlanılıb. Mina yoxdur". Bu qısa yazı Şuşanın yaxın vaxtlara qədər silahlı münaqişə zonasında olduğunu xatırlatdı. Qarabağın bir çox ərazisində mina təhlükəsi problemi yaşayış məntəqələrinin bərpası və dinc həyatın qaytarılması yolundakı əsas maneələrdən biri olaraq qalır".

Çinli jurnalist oçerkin sonunda diqqətə çatdırır ki, şəhərdə qalan xarabalıqlar keçmişin faciəvi səhifələrini xatırladır, yaxınlıqda tikilmiş yeni binalar isə sakinlərin şəhərə həyat vermək istəyinə dəlalət edir. Dağılmış divarların və müasir tikililərin belə bir təzad təşkil etməsi təkcə şəhərin bərpası prosesinin deyil, həm də uzunmüddətli sülhə ümidin təzahürüdür.

"Tarixi memarlıq keçmişin xatirəsini qoruyur, müasir binalar isə bu günün ehtiyaclarını ödəyir. Şuşanın təcrübəsi göstərir ki, mədəni irsin qorunması və şəhər infrastrukturunun inkişafı bir-biri ilə ziddiyyət təşkil etmir. Diqqətli və düşünülmüş yanaşma ilə onlar bir-birini tamamlaya, şəhərin tarixi kimliyini qorumasına və eyni zamanda gələcək nəsillər üçün rahat yaşayış mühiti yaratmasına imkan verə bilər".

# Azərbaycan Milli Mətbuatı - 151

**151 illik zəngin inkişaf yolu keçmiş Azərbaycan milli mətbuatı ölkəmizin ictimai-siyasi həyatının ayrılmaz hissəsi kimi cəmiyyətin maariflənməsində, milli şüurun formalaşmasında, dövlətçilik ideyalarının, həmrəyliyin güclənməsində müstəsna rol oynamışdır. Müxtəlif tarixi mərhələlərdə ciddi sınaqlarla üzləşsə də, Azərbaycan mətbuatı öz missiyasını hər zaman qoruyub saxlamışdır.**




# Azərbaycan mediası – beynəlxalq informasiya axınının fəal subyekti

Məlumdur ki, müasir dövrdə bütün dünyada medianın vəzifələri daha da mürəkkəbləşib. İnformasiya texnologiyalarının sürətli inkişafı, sosial şəbəkələrin geniş yayılması, süni intellekt alətlərinin informasiya istehsalında tətbiqi, hibrid müharibələri və dezinformasiya kampaniyaları informasiya məkanını milli təhlükəsizliyin əsas istiqamətlərindən birinə çevirib. Artıq dövlətlərin gücünün formalaşmasında onların informasiya siyasətinin effektivliyi də mühüm təsir qüvvəsinə malikdir.

Azərbaycan bu yeni reallıqları vaxtında qiymətləndirərək media siyasətini müasir çağırışlara uyğun yenidən formalaşdırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlar nəticəsində ölkəmizdə medianın hüquqi bazasının təkmilləşdirilməsi, iqtisadi dayanıqlılığının gücləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin genişləndirilməsi, informasiya təhlükəsizliyinin təminatı istiqamətində sistemli addımlar atılır.

Bu siyasətin əsas məqsədi milli maraqları müdafiə edə bilən, peşəkar, məsuliyyətli və rəqabətqabiliyyətli media mühiti formalaşdırmaqdır. Azərbaycan Prezidentinin yanaşmasına görə, söz azadlığı demokratik cəmiyyətin fundamental prinsiplərindəndir, eyni zamanda söz azadlığı çox yüksək məsuliyyət tələb edir. İnformasiyanın qərəzsizliyi, faktlara söykənməsi və milli maraqların qorunması peşəkar jurnalistikanın əsas meyarları olmalıdır.

## Möhkəm təməllərə əsaslanan siyasət

Bu gün ölkəmizdə həyata keçirilən media siyasəti Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik konsepsiyasına söykənir. Hələ Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə mətbuatın cəmiyyətə təsir imkanları yüksək qiymətləndirilir, sözə böyük dəyər verilir, mətbuatda işıqlandırılan məsələlər xüsusi diqqətdə saxlanılır, qəzet və jurnalların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılırdı. O dövrdə peşəkar jurnalist kadrların hazırlanması üçün indiki Bakı Dövlət Universitetində Jurnalistika fakültəsinin fəaliyyətinin genişləndirilərək təkmilləşdirilməsi həyata keçirilən həmin tədbirlərdən idi.

1993-cü ildə Azərbaycanın ağır və təlatümlü günlərində xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan Heydər Əliyev media siyasətini dövlət quruculuğunun əsas istiqamətlərindən biri elan etdi. Ölkədə söz və mətbuat azadlığının təmin olunması məqsədilə ardıcıl hüquqi islahatlar həyata keçirildi, Azərbaycanın qoşulduğu beynəlxalq konvensiyalara uyğun media qanunvericiliyi bazası yaradıldı. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasında hər kəsin informasiya əldə etmək hüququnun təsbit olunması bu siyasətin mühüm hüquqi əsasını formalaşdırdı.

Ölkəmizin milli mətbuat tarixinin ən mühüm hadisələrindən biri isə 1998-ci ildə mətbuat üzərindəki senzuranın tamamilə ləğvi ilə bağlı oldu. Prezident Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərmanla senzura sistemi tam aradan qaldırıldı. Bununla da Azərbaycan milli mətbuatı tarixində ilk dəfə olaraq dövlət senzurasından tam azad fəaliyyət göstərmək imkanı qazandı.

Sonrakı illərdə qəbul olunan "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Məlumat azadlığı haqqında", "Kütləvi informasiya vasitələri haqqında" qanunlar müstəqil medianın hüquqi əsaslarını daha da möhkəmləndirdi. Paralel olaraq qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi, vergi güzəştlərinin tətbiqi, dövlət müəssisələrinə məxsus binaların redaksiyalara güzəştli şərtlərlə istifadəyə verilməsi və jurnalistlərin fəaliyyətinin dəstəklənməsi istiqamətində mühüm qərarlar qəbul olundu. Beləliklə, Prezident İlham Əliyevin sonrakı illərdə həyata keçirdiyi media islahatları məhz bu möhkəm təməl üzərində formalaşdı.

## Güclü Azərbaycanın inkişaf edən mediası

2003-cü ildə xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilərək ölkəmizin yeni strateji inkişaf dövrünün əsasını qoyan cənab İlham Əliyev də informasiya siyasətini dövlət idarəçiliyinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Bu dövrdə əsas məqsəd söz və mətbuat azadlığının qorunması ilə yanaşı, medianın iqtisadi cəhətdən dayanıqlı, texnoloji baxımdan müasir və beynəlxalq rəqabətə davamlı olması idi.

Həyata keçirilən strateji inkişaf layihələrinin uğurlu nəticəsi kimi Azərbaycan iqtisadiyyatının güclənməsi dövlətin media siyasətində də yeni imkanlar yaratdı. Artıq mətbuatın inkişafı yalnız hüquqi təminatlarla məhdudlaşmır, həm də iqtisadi dəstək mexanizmləri ilə müşayiət olunurdu. Bu baxımdan 2008-ci ildə təsdiq edilmiş "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" ölkənin media tarixində yeni mərhələnin başlanğıcı oldu. Konsepsiyada media subyektlərinin iqtisadi dayanıqlılığının artırılması, jurnalist peşəkarlığının yüksəldilməsi, müasir informasiya texnologiyalarının tətbiqi və medianın cəmiyyət qarşısında məsuliyyətinin gücləndirilməsi əsas prioritetlər kimi müəyyənləşdirildi.

Bu konsepsiyanın məntiqi davamı olaraq 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradıldı. Müvafiq media layihələrinin maliyyələşdirilməsi, jurnalistlərin peşəkarlığının artırılması məqsədilə müsabiqələrin təşkili, regional medianın inkişafına dəstək, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, eyni zamanda milli mətbuatın yubileylərinin dövlət səviyyəsində keçirilməsi, jurnalistlərin orden, medal və fəxri adlarla mükafatlandırılması, sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin media siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün dövlət konkret addımlar atdı. Prezidentin sərəncamları ilə Bakıda jurnalistlər üçün çoxmənzilli yaşayış binaları inşa edildi və yüzlərlə media nümayəndəsi yeni mənzillərlə təmin olundu. Bu layihələr təkcə sosial dəstək tədbiri deyildi, həm də dövlətin jurnalist əməyinə verdiyi yüksək qiymət idi. Bunlardan əlavə, Prezident İlham Əliyevin jurnalistlərlə müntəzəm görüşlər keçirərək onların təkliflərini dinləməsi, media nümayəndələrinin problemlərinin operativ həlli, dövlət başçısının bir neçə dəfə "Jurnalistlərin dostu" mükafatına layiq görülməsi də Azərbaycan mətbuatının yeni inkişaf dövrünün diqqətçəkən reallıqlarıdır.

## Müasir dövrün çağırışı: sosial şəbəkə, yoxsa media

Son onilliklər bütün dünyada informasiya məkanı köklü dəyişikliklərə məruz qalır. İnternet mediasının sürətli inkişafı, sosial şəbəkələrin cəmiyyət həyatında mövqe tutması, süni intellekt texnologiyalarının informasiya istehsalına daxil olması və dezinformasiyanın qlobal təhlükəyə çevrilməsi media siyasətinə tamamilə yeni yanaşma tələb edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən media islahatlarının növbəti mərhələsi də məhz bu çağırışlara cavab vermək məqsədi daşıyır.

Bu islahatların ən mühüm istiqaməti media sahəsində institusional idarəetmənin təkmilləşdirilməsi oldu. 2021-ci il yanvarın 12-də Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" fərman ölkədə media siyasətinin keyfiyyətcə yeni mərhələsinin əsasını qoydu. Həmin fərman əsasında Medianın İnkişafı Agentliyi yaradıldı. Bu qurumun təsis edilməsi bütövlükdə Azərbaycan mediasının inkişaf strategiyasının yenilənməsi demək idi.

Agentliyin fəaliyyətinin əsas məqsədi media subyektlərinin iqtisadi dayanıqlılığını artırmaq, jurnalistikanın peşəkarlıq səviyyəsini yüksəltmək, müasir informasiya texnologiyalarının tətbiqini genişləndirmək və sağlam media mühitinin formalaşmasına dəstək verməkdir. Bu qurum fəaliyyətə başladığı gündən etibarən çoxsaylı layihələr həyata keçirmiş, media subyektləri üçün qrant müsabiqələri təşkil etmiş, jurnalistlərin ixtisasartırma proqramlarını reallaşdırmış, regional medianın inkişafına xüsusi diqqət ayırmışdır.

Bu gün artıq Azərbaycan mediası yalnız ənənəvi qəzet və televiziya ilə məhdudlaşmır. İnformasiya istehsalının əsas hissəsi rəqəmsal platformalara keçdiyindən yeni media bacarıqları, multimedia jurnalistikası, data jurnalistikası, mobil reportyorluq və süni intellekt alətlərindən istifadə peşəkar jurnalistin əsas fəaliyyətlərindən birinə çevrilmişdir. MEDİA Agentliyi də məhz bu istiqamətlər üzrə yeni layihələr həyata keçirərək medianın rəqəmsal transformasiyasını stimullaşdırmışdır.

Media islahatlarının mühüm mərhələlərindən biri də "Media haqqında" yeni qanunun qəbul edilməsi oldu. Prezident İlham Əliyevin 2022-ci il 8 fevral tarixli fərmanı ilə bu qanunun tətbiqi təmin edildi və onun həyata keçirilməsi üçün zəruri hüquqi mexanizmlər yaradıldı. Yeni qanunun qəbul edilməsini zəruri edən əsas səbəblərdən biri əvvəlki qanunvericiliyin sürətlə dəyişən informasiya mühitinin tələblərinə tam cavab verməməsi idi. İnternet mediası, sosial platformalar, onlayn xəbər portalları və rəqəmsal jurnalistika artıq informasiya istehsalının əsas istiqamətlərinə çevrilib. Bu baxımdan media fəaliyyətinin vahid hüquqi çərçivədə tənzimlənməsi zərurətə çevrilmişdir.

"Media haqqında" qanun media subyektlərinin hüquq və vəzifələrini daha dəqiq müəyyənləşdirdi, peşəkar jurnalistikanın inkişafını təşviq edən mexanizmlər formalaşdırdı, media reyestrinin yaradılmasını təmin etdi və informasiya məkanının təhlükəsizliyinin möhkəmləndirilməsinə xidmət göstərdi. Sənəddə xüsusilə informasiya istehsalında peşəkarlıq, etik davranış, faktların yoxlanılması və ictimai məsuliyyət prinsiplərinə üstünlük verilir.

Qanunun əsas məqsədlərindən biri də rəqabətqabiliyyətli milli medianın formalaşdırılmasıdır. Qloballaşan informasiya məkanında Azərbaycan mediasının xarici dezinformasiya kampaniyalarına qarşı dayanıqlılığının artırılması, milli informasiya resurslarının gücləndirilməsi və cəmiyyətin düzgün məlumatlandırılması dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Yaxın vaxtlar ölkəmizdə Media və Yayım Şurasının yaradılması da nəzərdə tutulur. Bunu zəruri edən amil ondan ibarətdir ki, müasir dövrdə milli informasiya təhlükəsizliyini və medianın iqtisadi müstəqilliyini təmin etmək üçün Azərbaycanda media sahəsinə münasibətdə daha çevik və kollegial mexanizmə keçid zərurəti yaranıb. Sözügedən mexanizm də öz növbəsində çap, onlayn və audiovizual media arasındakı sərhədlərin silinməsi, informasiya sisteminin əsas sütunu olan mediaya vahid yanaşmanı şərtləndirir. Bu baxımdan Media və Yayım Şurasının yaradılması, şura ilə bağlı vəzifə və öhdəliklərin "Media haqqında" qanunda öz əksini tapması və qurumun kollegial idarəetmə modelini əsas götürməsi onun müstəqilliyinə və quruma münasibətdə ictimai etimadın yüksəlməsinə zəmanət verən effektiv mexanizmdir.

Müasir dünyada azad medianın qarşısında duran əsas problemlərdən biri maliyyə dayanıqlılığıdır. Reklam bazarının dəyişməsi, çap mediasının gəlirlərinin azalması və rəqəmsal platformaların üstünlük qazanması nəticəsində dünyanın bir çox ölkəsində media qurumları ciddi iqtisadi çətinliklərlə üzləşirlər. Azərbaycanda isə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət medianın iqtisadi cəhətdən daha dayanıqlı fəaliyyət göstərməsini təmin edir. Dövlət dəstəyi proqramları, qrant layihələri, təlimlər, texniki modernləşmə və innovativ layihələrin maliyyələşdirilməsi nəticəsində media subyektlərinin fəaliyyət imkanları xeyli genişlənmişdir. Media qurumlarının texniki bazasının yenilənməsi, jurnalistlərin ixtisasartırma proqramlarında iştirakı və rəqəmsal platformalara inteqrasiyası ölkənin vahid informasiya məkanının formalaşmasına mühüm töhfə verməkdədir.

Prezident İlham Əliyevin media siyasətinin əsas xüsusiyyətlərindən biri ondan ibarətdir ki, dövlət dəstəyi yalnız maddi yardımlarla məhdudlaşmır. Bu siyasət medianın hüquqi, institusional, texnoloji və peşəkar inkişafını əhatə edən kompleks yanaşmaya əsaslanır. Məhz buna görə son illər Azərbaycan mediası yeni inkişaf mərhələsinə qədəm qoymuş, rəqəmsal transformasiya prosesinə uğurla uyğunlaşmış və beynəlxalq əməkdaşlıq imkanlarını xeyli genişləndirmişdir.

## Azərbaycan mediası informasiya savaşının ön cərgəsində

Müasir dünyamızda media fəaliyyəti həm də informasiya savaşının çox vacib elementidir. Dezinformasiya, saxta xəbərlər, manipulyativ informasiya kampaniyaları və kiberhücumlar dövlətlərin milli təhlükəsizliyi üçün ciddi təhdidlər yaradır. Azərbaycan da uzun illər Ermənistanın məqsədyönlü dezinformasiya siyasəti ilə üz-üzə qalmışdı. Xüsusilə Birinci Qarabağ müharibəsi dövründə beynəlxalq informasiya məkanında Azərbaycana qarşı qərəzli yanaşmalar, saxta məlumatlar və ikili standartlar geniş yayılmışdı. Belə şəraitdə güclü milli medianın formalaşdırılması və dövlətin informasiya siyasətinin müasir tələblərə uyğun qurulması strateji zərurətə çevrilmişdi.

Prezident İlham Əliyev hələ hakimiyyətinin ilk illərindən informasiya diplomatiyasını Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Dövlətimizin başçısının beynəlxalq televiziya kanallarına, nüfuzlu xəbər agentliklərinə və aparıcı qəzetlərə verdiyi müsahibələr Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadı. O, faktlara əsaslanan arqumentləri, beynəlxalq hüquqa söykənən mövqeyi və siyasi qətiyyəti ilə ölkəmizin maraqlarını ardıcıl müdafiə etdi.

44 günlük Vətən müharibəsi Azərbaycanın ardıcıl hərbi qələbələri ilə yanaşı, informasiya sahəsində əldə etdiyi böyük uğurlarla da tarixə düşdü. Müharibə günlərində Prezident İlham Əliyevin dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə verdiyi müsahibələr vasitəsilə ölkəmizin haqlı mövqeyi bütün dünyaya çatdırıldı.

Həmin dövr Azərbaycan mediası da böyük məsuliyyət nümayiş etdirdi. Yerli televiziya kanalları, xəbər agentlikləri və informasiya portalları cəbhədən operativ məlumatlar təqdim edir, rəsmi mənbələrə əsaslanan informasiyanın daha geniş beynəlxalq auditoriyaya yayılmasına kömək göstərir, cəmiyyətdə birlik və həmrəylik ruhunun möhkəmlənməsinə xidmət edirdi.

## Media diplomatiyası daha da gücləndirilir

Ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasından sonra Azərbaycanın beynəlxalq informasiya siyasəti yeni mərhələyə qədəm qoyub. İşğaldan azad edilmiş ərazilərə xarici və yerli jurnalistlərin mütəmadi səfərləri təşkil olunur, media nümayəndələri Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-yenidənqurma işləri ilə yerində tanış olaraq reallıqları işıqlandırırlar. Bütün bunlar informasiya diplomatiyasının mühüm elementləridir.

Azərbaycan artıq yalnız beynəlxalq medianın obyektinə deyil, həm də qlobal informasiya gündəmini formalaşdıran ölkələrdən birinə çevrilməyə başladı. Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Şuşa Qlobal Media forumları bu baxımdan son illərin ən mühüm beynəlxalq media platformalarından biri hesab olunur. Forumun əsas məqsədi müasir medianın problemlərinin müzakirəsi, dezinformasiyaya qarşı mübarizə yollarının müəyyənləşdirilməsi, süni intellekt dövründə jurnalistikanın gələcəyinin qiymətləndirilməsi və beynəlxalq media əməkdaşlığının genişləndirilməsidir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşada təşkil olunan forum hər il dünyanın müxtəlif ölkələrindən yüzlərlə jurnalisti, media rəhbərini, eksperti və beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirir.

Şuşa Forumunu fərqləndirən əsas cəhətlərdən biri Prezident İlham Əliyevin iştirakçılarla açıq dialoq formatında görüşlər keçirməsi, onların ən müxtəlif məsələlərə həsr olunmuş suallarını cavablandırmasıdır. Bu çıxışlar dünyanın aparıcı media qurumları tərəfindən geniş işıqlandırılır və Azərbaycan haqqında obyektiv informasiya mənbələrindən birinə çevrilir. Ümumiyyətlə, son illər ölkəmizdə keçirilən beynəlxalq tədbirlər media diplomatiyasını daha da gücləndirib. COP29, Şuşa Qlobal Media Forumu, beynəlxalq forumlar və digər qlobal tədbirlər dünyanın aparıcı informasiya resurslarının diqqətini respublikaya yönəldib.

Azərbaycan Prezidentinin yerli media nümayəndələri ilə görüşləri, onlara verdiyi müsahibələr, həyata keçirilən dövlət siyasətinin ayrı-ayrı məqamları barədə bu müsahibələrdə zəruri məlumatları bölüşməsi də mütəmadi xarakter daşıyır. Dövlətimizin başçısının formalaşdırdığı bu açıq kommunikasiya modeli dövlətlə media arasında etimadın möhkəmlənməsinə, eyni zamanda Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsinə xidmət göstərir.

Bu gün Azərbaycan mediası artıq təkcə ölkədaxili informasiya məkanının iştirakçısı deyil, həmçinin beynəlxalq informasiya axınının fəal subyektidir. Azərbaycan mediasının xarici media qurumları ilə əməkdaşlığı genişlənir, regional və qlobal məsələlərin müzakirəsində daha fəal rol oynayır.

Cənab İlham Əliyevin media siyasəti dövlətin informasiya suverenliyinin qorunmasına, milli maraqların beynəlxalq mediada etibarlı müdafiəsinə və ölkənin "yumşaq güc" potensialının artırılmasına xidmət edən uzunmüddətli strateji yanaşmaya əsaslanır. Bu uğurlu siyasət nəticəsində Azərbaycan regionda informasiya diplomatiyasını uğurla həyata keçirən, qlobal media dialoqunun fəal iştirakçısına çevrilən və milli maraqlarını informasiya müstəvisində ardıcıl müdafiə edən dövlət kimi mövqeyini daha da möhkəmləndirir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan Milli Mətbuatı - 151

# Azərbaycan milli mətbuatının inkişaf yolu və müasir media siyasəti

**Azərbaycan milli mətbuatının əsası 22 iyul 1875-ci ildə böyük maarifçi Həsən bəy Zərdabinin redaktoru olduğu "Əkinçi" qəzetinin nəşrə başlaması ilə qoyulub. Həmin tarixdən etibarən Azərbaycan mətbuatı uzun və şərəfli inkişaf yolu keçərək milli dövlətçilik tariximizin ayrılmaz tərkib hissəsinə çevrilib, xalqın maariflənməsinə, milli şüurun formalaşmasına və ictimai fikrin inkişafına mühüm töhfələr verib.**



"Əkinçi" qəzeti cəmi iki ildən bir qədər artıq fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan milli mətbuatının təşəkkülündə və inkişafında müstəsna rol oynayıb. Bu qəzet milli mətbuatımızın ilk qaranquşu olmaqla yanaşı, xalqın maariflənməsinə, elmə, təhsilə və tərəqqiyə çağırış edən mühüm tribuna kimi çıxış etmişdir. Həsən bəy Zərdabi "Əkinçi" vasitəsilə demokratik ideyaları təbliğ etmiş, ictimai, siyasi və bədii fikrin inkişafına güclü təsir göstərmiş, cəmiyyət arasında böyük nüfuz qazanmışdır. Qəzetin milli oyanışa xidmət edən fəaliyyəti çar Rusiyası hakimiyyətini ciddi narahat etdiyindən 1877-ci ildə onun nəşri dayandırılmışdır.

"Əkinçi"nin bağlanmasına baxmayaraq, onun yaratdığı ənənə davam etdirilmişdir. Sonrakı dövrlərdə nəşr olunan "Ziya", "Kəşkül", "Həyat", "Füyuzat", "İrşad", "Molla Nəsrəddin", "Məktəb", "Kaspi" və digər qəzet və jurnallar Həsən bəy Zərdabinin əsasını qoyduğu milli mətbuat məktəbini inkişaf etdirərək Azərbaycan jurnalistikasının zəngin irsinin formalaşmasına mühüm töhfələr vermişdir. Bu nəşrlər milli-mənəvi dəyərlərin qorunması, maarifçilik ideyalarının yayılması, milli özünüdərk və azadlıq düşüncəsinin inkişaf etdirilməsi istiqamətində əvəzsiz xidmətlər göstərmişdir.

Müstəqil Azərbaycan Respublikasında milli mətbuatın inkişafında yeni mərhələ 1993-cü ildən, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlayıb. Həmin dövrdən etibarən ölkədə həyata keçirilən genişmiqyaslı siyasi, hüquqi və iqtisadi islahatlar çərçivəsində söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələrin aradan qaldırılması, demokratik media mühitinin formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Medianın fəaliyyətini tənzimləyən müasir qanunvericilik bazası yaradılmış, onun iqtisadi müstəqilliyinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafında rolunun artırılması və peşəkar jurnalistikanın formalaşdırılması məqsədilə ardıcıl dövlət siyasəti həyata keçirilmişdir.

Ümummilli Lider Heydər Əliyevin 1998-ci ilin avqustunda kütləvi informasiya vasitələri üzərində dövlət senzurasını ləğv etməsi Azərbaycan mətbuatının tarixində dönüş nöqtəsi olmuşdur. Bu mühüm qərar söz və mətbuat azadlığının təmin edilməsində yeni mərhələnin əsasını qoymuş, ölkədə azad və demokratik media mühitinin inkişafına güclü təkan vermişdir. Nəticədə qəzet və jurnalların sayı sürətlə artmış, media orqanları fəaliyyətlərini müstəqil şəkildə qurmağa başlamışdır. Beləliklə, cəmiyyətin obyektiv və operativ informasiya ilə təmin olunması istiqamətində geniş imkanlar yaranmışdır.

Prezident İlham Əliyev tərəfindən həyata keçirilən media siyasəti milli mətbuatın inkişafında yeni mərhələnin başlanğıcı olmuşdur. Bu siyasətin mühüm istiqamətlərindən biri kimi 31 iyul 2008-ci ildə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilmişdir. Konsepsiyanın əsas məqsədi dövlət orqanları ilə media arasında səmərəli əməkdaşlığın inkişaf etdirilməsi, jurnalistlərin peşəkarlığının artırılması, medianın iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi və vətəndaş cəmiyyətinin inkişafında kütləvi informasiya vasitələrinin rolunun gücləndirilməsi olmuşdur. Bu sənəd milli medianın müasir dövrün çağırışlarına uyğun inkişafına mühüm töhfə vermişdir.

Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, Azərbaycan jurnalistikası peşəkarlıq, obyektivlik, qərəzsizlik, yüksək milli şüur və vətənpərvərlik prinsiplərinə sadiq qalmalı, söz və məlumat azadlığından sui-istifadə hallarına yol verməməlidir. Bu prinsiplər müasir Azərbaycan jurnalistikasının etik və peşəkar fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir.

İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində Azərbaycan mediası qlobal informasiya məkanının ayrılmaz tərkib hissəsinə çevrilib. Rəqəmsal platformaların geniş yayılması, internet jurnalistikasının inkişafı və sosial media resurslarının imkanlarının artması informasiya mübadiləsini sürətləndirməklə yanaşı, jurnalistikanın qarşısında yeni vəzifələr də müəyyənləşdirib. Bu şəraitdə operativlik, dəqiqlik, obyektivlik və peşəkarlıq medianın əsas fəaliyyət prinsipləri kimi xüsusi əhəmiyyət kəsb edir.

Ölkəmizdə milli mətbuatın yubileylərinin yüksək səviyyədə qeyd olunması jurnalistika tariximizə verilən böyük önəmin və dövlət qayğısının bariz nümunəsidir. Milli mətbuatın yubileylərinin keçirilməsi bir tərəfdən zəngin media irsinin qorunmasına, digər tərəfdən isə gənc jurnalist nəslində peşəyə hörmət hissinin gücləndirilməsinə xidmət edir. Bu tədbirlər eyni zamanda milli mətbuatın gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin 3 fevral 2025-ci il tarixli sərəncamı ilə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi dövlətin milli mətbuata verdiyi yüksək qiymətin ifadəsi olmaqla yanaşı, jurnalistlərin əməyinin stimullaşdırılması və peşə nüfuzunun artırılması istiqamətində mühüm addım olmuşdur.

30 dekabr 2021-ci ildə qəbul edilmiş "Media haqqında" qanun media fəaliyyətinin müasir dövrün tələblərinə uyğun tənzimlənməsinə, informasiya mühitinin sağlamlaşdırılmasına, media subyektlərinin hüquq və vəzifələrinin daha dəqiq müəyyənləşdirilməsinə, jurnalist fəaliyyətinin hüquqi əsaslarının möhkəmləndirilməsinə və media sektorunda şəffaflığın artırılmasına xidmət edən mühüm normativ-hüquqi sənəddir. Azərbaycan Respublikasının Konstitusiyasında söz və mətbuat azadlığının əsas insan hüquqlarından biri kimi təsbit edilməsi ölkədə medianın azad, məsuliyyətli və güclü ictimai institut kimi formalaşmasının hüquqi əsasını təşkil edir. Dövlət media sektorunun inkişafını, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsini və peşə fəaliyyətinin stimullaşdırılmasını daim diqqət mərkəzində saxlayır. Bu məqsədlə müxtəlif dövrlərdə kütləvi informasiya vasitələrinə maliyyə dəstəyi göstərilmiş, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm layihələr həyata keçirilmiş, milli mətbuatın inkişafındakı xidmətlərinə görə çoxsaylı media nümayəndələri fəxri adlara, orden və medallara layiq görülmüşdür. 2023-cü il yanvarın 1-dən etibarən media subyektlərinin media fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, reklam gəlirləri, eləcə də MEDİA Agentliyi tərəfindən ayrılan maliyyə vəsaitləri müəyyən edilmiş müddət ərzində bir sıra vergilərdən, o cümlədən əlavə dəyər vergisindən azad edilmişdir. Bu güzəştlər media sektorunun iqtisadi dayanıqlılığının gücləndirilməsinə, rəqabət qabiliyyətinin artırılmasına və milli medianın davamlı inkişafına mühüm dövlət dəstəyi kimi qiymətləndirilir.

Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev milli mətbuatın inkişafını daim dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndirmiş, jurnalistikanın müasir dövrün tələblərinə uyğun inkişafı üçün ardıcıl tədbirlər həyata keçirmişlər. Məhz bu diqqət və qayğının nəticəsidir ki, Azərbaycan mediası bu gün həm milli maraqların qorunması, həm də ölkəmizin beynəlxalq informasiya məkanında layiqincə təmsil olunması istiqamətində mühüm rol oynayan güclü ictimai institutlardan birinə çevrilmişdir.



Azərbaycan mətbuatı Birinci və İkinci Qarabağ müharibələri dövründə də yüksək peşəkarlıq, fədakarlıq və məsuliyyət nümayiş etdirmişdir. Hər iki müharibə zamanı milli media rəsmi mənbələrə əsaslanan dəqiq, operativ və etibarlı informasiyanın ictimaiyyətə çatdırılmasında mühüm rol oynamış, cəmiyyətin düzgün məlumatlandırılmasına, milli həmrəyliyin möhkəmləndirilməsinə və vətəndaşlarda vətənpərvərlik ruhunun yüksəldilməsinə əhəmiyyətli töhfə vermişdir. İnformasiya müharibəsinin hərbi əməliyyatlar qədər mühüm əhəmiyyət kəsb etdiyi bir şəraitdə Azərbaycan mediası peşəkarlıq nümayiş etdirərək dövlətin informasiya siyasətinin həyata keçirilməsinə mühüm dəstək göstərmişdir.

Xüsusilə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı milli mətbuatın fəaliyyəti xüsusi əhəmiyyət kəsb etmişdir. Bu dövrdə media orqanları yalnız ölkə ictimaiyyətinin operativ və obyektiv məlumatlandırılmasını təmin etməmiş, eyni zamanda beynəlxalq informasiya məkanında Azərbaycan həqiqətlərinin yayılmasında, dezinformasiyaların ifşa edilməsində və xarici auditoriyanın düzgün məlumatlandırılmasında həlledici rol oynamışdır. Jurnalistlər hadisələri operativ şəkildə işıqlandıraraq dövlət qurumlarının rəsmi məlumatlarının geniş auditoriyaya çatdırılmasına, informasiya təhlükəsizliyinin təmin edilməsinə və milli maraqların müdafiəsinə mühüm töhfə vermişlər.

Müasir dövrdə Azərbaycanın beynəlxalq media əməkdaşlığının inkişaf etdirilməsi istiqamətində həyata keçirilən mühüm təşəbbüslərdən biri də Şuşa Qlobal Media Forumudur. 2023-cü ildən etibarən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində təşkil olunan bu mötəbər beynəlxalq platforma dünyanın müxtəlif ölkələrindən yüzlərlə jurnalisti, media rəhbərini, eksperti, alimləri və beyin mərkəzlərinin nümayəndələrini bir araya gətirir. Forum qlobal informasiya mühitində baş verən proseslərin, rəqəmsal transformasiyanın, media təhlükəsizliyinin, süni intellektin, dezinformasiyaya qarşı mübarizənin və beynəlxalq media əməkdaşlığının müzakirə edildiyi nüfuzlu platformaya çevrilmişdir. Şuşa Qlobal Media Forumunun mühüm xüsusiyyətlərindən biri də forum iştirakçılarının Prezident İlham Əliyevlə açıq dialoq aparmaq imkanı əldə etmələridir. Dövlət başçısı forum çərçivəsində yerli və xarici media nümayəndələrinin suallarını ətraflı cavablandırır, Azərbaycanın daxili və xarici siyasəti, regional və qlobal proseslər, beynəlxalq təhlükəsizlik, iqtisadi inkişaf, enerji siyasəti və digər aktual məsələlərlə bağlı ölkəmizin mövqeyini birbaşa dünya ictimaiyyətinə çatdırır. Bu, beynəlxalq media nümayəndələrinin informasiyanı ilkin mənbədən əldə etməsinə, Azərbaycanın mövqeyinin daha dolğun və obyektiv şəkildə beynəlxalq auditoriyaya təqdim olunmasına mühüm töhfə verir.

Bu gün dünya nizamı sürətlə dəyişir, geosiyasi proseslər yeni mərhələyə qədəm qoyur və qlobal informasiya mühitində rəqabət daha da kəskinləşir. Belə mürəkkəb beynəlxalq şəraitdə Azərbaycan mediasının qarşısında da yeni vəzifələr və çağırışlar dayanır. Müasir medianın inkişafı qabaqcıl rəqəmsal texnologiyaların tətbiqi, sosial media platformalarında peşəkar fəaliyyətin genişləndirilməsi, rəqəmsallaşma proseslərinin sürətləndirilməsi, süni intellekt texnologiyalarından səmərəli istifadə, media savadlılığının yüksəldilməsi, kibertəhlükəsizliyin gücləndirilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizənin daha da təkmilləşdirilməsi, eləcə də effektiv ictimai kommunikasiyanın təmin olunması kimi mühüm istiqamətləri əhatə edir. Məhz bu amillər Azərbaycan mediasının gələcək inkişaf perspektivlərini və qlobal informasiya məkanındakı mövqeyini müəyyənləşdirəcək əsas faktorlar hesab olunur. Eyni zamanda milli media müasir informasiya mühitinin tələblərini nəzərə almaqla xalqımızın maraqlarını daim ön planda saxlamalı, dövlətçilik prinsiplərinə sadiq qalmalı və ölkəmizin beynəlxalq münasibətlər sistemində artan nüfuzunun, sosial-iqtisadi inkişafının, həyata keçirilən islahatların, işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin, "Böyük qayıdış" proqramının icrasının və digər mühüm dövlət siyasəti istiqamətlərinin ölkə və dünya ictimaiyyətinə operativ, obyektiv və peşəkar şəkildə çatdırılmasını təmin etməlidir. Bu, həm Azərbaycanın beynəlxalq informasiya məkanında mövqeyinin möhkəmləndirilməsinə, həm də milli informasiya təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir.

Güclü, peşəkar, müstəqil və məsuliyyətli media hər bir dövlətin dayanıqlı inkişafının mühüm sütunlarından biridir. Doğru, obyektiv və operativ informasiya cəmiyyətin sağlam inkişafına, dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsinə, milli həmrəyliyin güclənməsinə və ölkənin beynəlxalq nüfuzunun artmasına xidmət edir. Məhz buna görə də Azərbaycan milli mətbuatı zəngin tarixi ənənələrinə söykənərək müasir çağırışlara uyğun inkişaf etməli, innovativ texnologiyalardan səmərəli istifadə və milli maraqların etibarlı müdafiəçisi kimi fəaliyyətini gələcəkdə də uğurla davam etdirməlidir.

*Azər BADAMOV,*
*Milli Məclisin deputatı*

# Həqiqətin və dövlətçiliyin xidmətində



**İyulun 22-si Azərbaycanın mədəni fikir tarixində sıradan bir təqvim günü deyil, millətimizin azadlıq və tərəqqi mübarizəsinin şanlı rəmzidir. 1875-ci ildə böyük maarifçi Həsən bəy Zərdabinin ağır şəraitdə nəşr etdirdiyi ilk anadilli qəzetimiz - "Əkinçi" ilə milli mətbuatımızın əsası qoyuldu. Cəmi iki il yaşamasına baxmayaraq, "Əkinçi" milli kimliyin formalaşmasında və ana dilinin qorunmasında müstəsna rol oynayaraq Azərbaycan cəmiyyətində əbədi bir məşəl yandırdı.**

Bu ilk addımdan sonra Azərbaycan mətbuatı çətin, lakin zəngin bir təkamül yolu keçdi. "Əkinçi"nin açdığı cığırla irəliləyən "Ziya", "Kəşkül", "Şərqi-Rus", "Molla Nəsrəddin", "Füyuzat", "Həyat", "İrşad", "Açıq söz" kimi tarixi nəşrlər milli təfəkkürün formalaşmasına, azərbaycançılıq ideyasının möhkəmlənməsinə və cəmiyyətin dünyəvi elmlərə yiyələnməsinə misilsiz töhfələr verdilər. Bu qəzet və jurnallar təkcə dövrün xəbərlərini oxuculara çatdırmır, həm də xalqı savadlanmağa, milli dəyərləri qorumağa və ictimai problemlərə biganə qalmamağa səsləyən bir maarifçilik tribunası rolunu oynayırdılar.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra milli mətbuatın inkişafında tamamilə yeni və azad bir dövr başladı. Xüsusilə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra mətbuatın tərəqqisi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrildi. 1998-ci ildə Azərbaycanda senzuranın ləğv edilməsi ölkədə söz və mətbuat azadlığının təmin olunması istiqamətində atılmış tarixi və cəsarətli bir addım oldu. Bu qərar müstəqil medianın formalaşmasına yeni nəfəs verdi, jurnalistlərin sərbəst fəaliyyət göstərməsi üçün hüquqi və demokratik mühit yaratdı. Ulu Öndərin rəhbərliyi dövründə mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial problemlərinin həlli və media mühitinin tərəqqisi istiqamətində mühüm qərarlar qəbul edildi. Həmin strateji xətt Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müasir dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşdirilir. Dövlət başçısının rəhbərliyi ilə informasiya siyasətinin müasir çağırışlara uyğunlaşdırılması, medianın institusional inkişafı, rəqəmsal mühitin genişləndirilməsi və informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə ardıcıl islahatlar həyata keçirilir. Son illər media sahəsində tətbiq edilən yeni hüquqi mexanizmlər informasiya məkanında məsuliyyətin, peşəkarlığın və sağlam rəqabətin artırılmasına xidmət edir. Jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi və müasir texnologiyalarla işləmək imkanlarının genişləndirilməsi milli mətbuatın gələcək inkişafı üçün möhkəm zəmin yaradır.

Azərbaycan mətbuatı özünün ən çətin və tarixi sınaqlarından birini Vətən müharibəsi dövründə verdi və bu imtahandan alnıaçıq çıxdı. Yerli media orqanları və jurnalistlər cəbhədə baş verən hadisələri operativ işıqlandıraraq, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynadılar. Ermənistanın uzun illər ərzində yaydığı dezinformasiyalara və saxta xəbərlərə qarşı informasiya müstəvisində yüksək peşəkarlıqla mübarizə aparan Azərbaycan mediası dövlətimizin haqlı və ədalətli mövqeyinin beynəlxalq auditoriyaya çatdırılmasına əvəzsiz töhfə verdi. Postmüharibə dövründə isə media azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərini, "Böyük qayıdış" proqramının icrasını, Qarabağ və Şərqi Zəngəzurun dirçəlişini mütəmadi diqqətdə saxlayaraq dövlət quruculuğu prosesini obyektiv şəkildə işıqlandırır.

Müasir dövrdə informasiya texnologiyalarının və sosial şəbəkələrin sürətli inkişafı media fəaliyyətinə geniş imkanlar qazandırmaqla bərabər, həm də ciddi məsuliyyət hissi aşılayır. Saxta xəbərlərin qlobal miqyasda sürətlə yayıldığı bir dövrdə zəngin tarixi ənənələrə söykənən müasir mətbuatımız həm ölkə daxilində, həm də beynəlxalq məkanda Azərbaycanın milli maraqlarını qorumaq missiyasını şərəflə yerinə yetirir. Məhz bu çətin və məsuliyyətli öhdəliyi çiyinlərində daşıyan, hər bir informasiyanı dürüstlük süzgəcindən keçirən media işçilərinin əməyi hər cür təqdirəlayiqdir. Bu fədakar fəaliyyətin fonunda təqvimdəki bu xüsusi gündə - 22 İyul - Milli Mətbuat və Jurnalistika Günündə qələmini həqiqətə, obyektivliyə və dövlətçiliyə xidmətə həsr edən bütün media nümayəndələrini səmimi-qəlbdən təbrik edirəm. Əminik ki, Azərbaycan milli mətbuatı bundan sonra da cəmiyyətimizin maariflənməsinə, milli-mənəvi dəyərlərimizin təbliğinə, dövlətimizin beynəlxalq nüfuzunun daha da artmasına və ölkəmizin hərtərəfli inkişafına öz layiqli töhfələrini verməkdə davam edəcək.

*Kamran BAYRAMOV,*
*Milli Məclisin deputatı*




# Mətbu söz zamanın salnaməsidir



**Azərbaycan jurnalistikası tarix baxımından uzaq keçmişə aid olmasa da, 151 illik çox zəngin, lakin son dərəcə ziddiyyətli mərhələlərdən keçmişdir. Buna baxmayaraq, sözün həqiqi mənasında, milli jurnalistika fenomeni xalqımızn mənəvi dəyərlərini və etnik özünüdərkini formalaşdıran bir institut kimi qiymətli irsə çevrilmişdir. Ümummilli Lider Heydər Əliyev məhz bunu nəzərə alaraq deyirdi: "Azərbaycan mətbuatı tarix boyu daim mütərəqqi ictimai idealların carçısı kimi çıxış etmiş, xalqımızın ən ülvi arzularının reallaşmasına öz töhfəsini vermiş, onun müstəqillik amalının güclənməsində, mənəvi dəyərlərinin tərəqqisində, milli şüurun, mədəniyyətin formalaşmasında böyük rol oynamışdır".**

XIX-XX əsrlərdə milli jurnalistika ciddi maneələrlə, qadağalarla üzləşsə də, müstəqillik və azadlıq ideyalarının milli təfəkkürə nüfuz etməsində böyük rol oynamışdır. Məlumdur ki, cəmiyyətdə baş verən mühüm hadisələr - qarşıdurmalar, iğtişaşlar, inqilablar, müharibələr və s. mətbuatda fəallığın daha gur "alovlanması"na səbəb olur. XX əsr Azərbaycan tarixinin əvvəlinə və sonuna diqqət etsək, bu cür "alovlanmalar"ı bir neçə dəfə müşahidə etmək mümkündür. 1917-1918-ci illərdə Rusiya imperiyasının dağılması, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, daha sonra Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən işğalı, Azərbaycanın SSRİ-nin tərkibinə daxil olması, 1980-ci illərdən Azərbaycan torpaqlarının 30 ilə yaxın Ermənistanın işğalı altında olması, ən nəhayət, 44 günlük Vətən müharibəsində qazanılan Zəfər - bütün bunlar Azərbaycan milli mətbuatının ana xəttini təşkil edən fakt və tarixləşmiş hadisələrdir.

Mətbuat yarandığı gündən milli dəyərlərin qorunmasına, dilimizin, incəsənətimizin və mədəniyyətimizin inkişafına böyük töhfələr verib. Xüsusilə 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbəri seçildikdən sonra digər sahələr kimi, milli mətbuatın inkişafında və milli jurnalist kadrların yetişməsində çox mühüm tədbirlər həyata keçirilib. Məhz Ulu Öndərin qətiyyəti sayəsində 1978-ci ildə Azərbaycan SSR-nin yeni Konstitusiyası qəbul edilərkən orada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına, habelə milli mətbuatımızda ədəbi dilin, anadilli mətbuatın inkişafına və milli jurnalist kadrlarının hazırlanmasına xüsusi diqqət ayrılıb.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə qayıdışı ilə Azərbaycan mətbuatı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu qayıdış ölkə üçün çox ağır bir dövrə təsadüf etsə də, müstəqil dövlətçiliyin möhkəm təməllər üzərində qurulmasında müstəsna rol oynadı. Media ilk növbədə Ulu Öndərin irəli sürdüyü həmrəylik missiyasında fəal iştirak etməyə başladı. Paralel olaraq milli mətbuatın söz azadlığı və demokratik prinsiplər əsasında inkişafı strateji xarakter aldı. Bu strateji xəttin təməlini də bir zamanlar qırmızı imperiyanın hakim-mütləq olduğu illərdə belə "Qoy ədalət zəfər çalsın!" müsahibəsi ilə Kremli silkələyən Heydər Əliyev qoydu.

Heydər Əliyev müstəqillik illərində milli mətbuatın tarixi rolunu yüksək qiymətləndirərək deyirdi: "Milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir". Elə bu səbəbdən Ulu Öndər milli medianın yeni dövrün tələbləri səviyyəsindən fəaliyyətini təmin etmək üçün mətbuat və söz azadlığının, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirirdi.

Jurnalistlərə, media nümayəndələrinə son dərəcə böyük dəyər verən, sözün qiymətini, mətbuatın dövlətçilikdə yerini və rolunu yüksək dəyərləndirən Ümummilli Lider 2000-ci ilin ortalarında Rusiyanın "Jurnalist" jurnalının baş redaktoruna verdiyi müsahibədə deyirdi: "Demokratik mətbuat nə deməkdir? Çox ümumiləşdirilmiş şəkildə desək, bu, rəsmi və sırf fərdi nöqteyi-nəzərlərin ifadəsi üçün hüquqların bərabərliyinə nail olmaqdır, hakimiyyətin müxtəlif qollarının (o cümlədən də "dördüncü" qolunun, yəni mətbuatın özünün) fəaliyyəti haqqında operativ xəbərlər axınıdır. Nəhayət, mətbuat dövlətlə cəmiyyəti birləşdirən canlı əlaqə vasitəsidir".

Bu canlı əlaqənin bariz nümunəsinin vətənin ən ağır vaxtlarında Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra şahidi olduq. Milli ideologiyanın formalaşmasına kəskin ehtiyac duyulduğu bir vaxtlarda jurnalistlər ölkəmizi vətəndaş müharibəsindən xilas edən liderin rəhbərliyi ilə milli müstəqilliyin müdafiəsinin önünə keçdilər. Xalqdan gizlədilən həqiqətləri hər cür təzyiqlərə və təhdidlərə baxmayaraq, xalqa çatdırdılar.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və ənənəyə çevrilmiş mediaya dövlət dəstəyi bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin 2008-ci ildə kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyasını təsdiq etməsi Azərbaycan mediasının inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Azərbaycan dövləti heç bir sosial layihəni, o cümlədən də mediaya dövlət dəstəyini dayandırmır, əksinə, daha da artırır. Artıq dörd ildir ki, Qarabağın ürəyi sayılan Şuşada ənənə halını almış Qlobal Media Forumu keçirilir. Bu tədbirdə dünyanın aparıcı mətbuat rəhbərləri, radio, televiziya və agentlik nümayəndələri təmsil olunurlar. Ən nəhayət, 21 ildir ki, ölkəmizdə Milli Mətbuat və Jurnalistika Günü dövlət səviyyəsində qeyd edilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Qələmi qırılan aydınlar

**Azərbaycan mətbuatı tarixboyu təqiblərə, senzuralara və maddi çətinliklərə sinə gərərək xalqının səsini ucaldan bötük fədailər yetişdirmişdir. Onlar mətbuatı, sadəcə, bir peşə deyil, millətin varlıq və azadlıq mübarizəsi üçün müqəddəs bir tribuna hesab edirdilər.**

XX əsrin əvvəllərində Azərbaycan mətbuatı məhz belə bir missiyanı üzərinə götürmüşdü, o, Şərqdə ilk demokratik respublikanın qurulmasında, milli intibahın və maarifçiliyin dalğalanmasında əvəzsiz rol oynamışdı. Lakin 1920-ci ilin aprel işğalından sonra kök salan sovet totalitarizmi azad sözün nə qədər təhlükəli olduğunu çox yaxşı anlayırdı. Məhz bu səbəbdən sovet totalitar rejimi öz ideoloji imperiyasını qurarkən ilk növbədə cəmiyyətin beynini idarə edən ziyalıları hədəfə aldı. "Xalq düşməni", "pantürkist" damğası ilə susdurulan bu qələmlər, əslində, millətin həqiqət səsi idi. Təsadüfi deyil ki, 37-nin Stalin repressiyaları dövründə sovet ideoloji maşını cəmiyyətin beynini tamamilə idarə etmək, insanları kütləvi qorxu psixologiyası içərisində saxlamaq üçün ilk amansız zərbəni məhz mətbuat xadimlərinə, publisistlərə və jurnalistlərə vurdu. Saxta və uydurma ittihamlarla hədəf seçilən bu şəxslər millətin qorunub saxlanmalı olan tarixi yaddaşı idilər. Qırmızı terrorun qara siyahısına salınan onlarca qələm fədaisi bir-birinin ardınca susdurulur, redaksiyalar isə bir gecədə totalitar rejimin təbliğat ruporuna çevrilirdi. Bu, təkcə fərdlərin deyil, bütöv bir milli publisistika məktəbinin, bədii-fəlsəfi təfəkkürün məhv edilməsi prosesi idi.

1930-cu illərin Qırmızı terroru - buna ideoloji qırğın deyirlər - milli terminlərin qadağası, sifarişli qəzet məqalələri, qorxulu senzurun hökmranlığı, digər tərəfdən fiziki məhvolmalar - NKVD zindanlarında edamlar, Sibirə və Qazaxıstana sürgünlər, elmi və publisistik irsin yox edilməsi, yandırılması SSRİ adlı bütün imperiyanı bürümüşdü.

## "Təmizləmə" dalğası

1930-cu illərin ortalarında Azərbaycanın mətbuat orqanlarında dəhşətli bir "təmizləmə" dalğası başladı. Aparıcı mətbuat vasitələri hər gün öz səhifələrində redaktorların, aparıcı müxbirlərin "ifşa olunması" xəbərlərini dərc etməyə məcbur qalırdı. Rejim jurnalistləri elə bir psixoloji tələyə salmışdı ki, sağ qalmaq üçün bir çoxu öz həmkarlarının əleyhinə ifadələr verməyə, yazılar yazmağa məcbur olurdular. Lakin totalitar maşının iştahası qapanmırdı, bu gün həmkarını ittiham edən jurnalist sabah tezdən özü NKVD-nin "qara maşın"ında (çornıy voron) zindana aparılırdı. Redaksiyalar sərbəst yaradıcılıq və müzakirə məkanı olmaqdan çıxıb qorxu, şübhə və xof yuvasına çevrilmişdi. Hər bir müxbir, korrektor, hər bir redaktor buraxdığı tək bir hərf səhvinə görə "təxribatçı" elan edilərək güllələnə biləcəyini aydın başa düşürdü. Bununla da Azərbaycan jurnalistikasının və publisistikasının ən parlaq simaları NKVD-nin (Xalq Daxili İşlər Komissarlığı) qaranlıq zirzəmilərinə sürüklənirdilər.

"Molla Nəsrəddin" jurnalının yaradıcılarından və əsas sütunlarından biri, görkəmli publisist Ömər Faiq Nemanzadə 1937-ci ildə cəmiyyətdən təcrid olunaraq həbs edilmiş və cəmi 3 ay sonra - oktyabr ayında mühakimə edilmədən güllələnmişdir. Əhməd Cavad yalnız istiqlal şairi deyildi, həm də "Azərbaycan", "Dalğa" qəzetlərinin fəal publisisti idi. Bu böyük şəxsiyyət millətçilik ittihamı ilə 1937-ci ildə güllələnmişdi. "Yeni iqbal", "Bəsirət" qəzetlərinin redaktoru və Azərbaycan mətbuatında publisistik janrın ustadı olan yazıçı Seyid Hüseyn sovet senzurasına baş əymədiyi üçün 1938-ci ildə edam edilmişdi. Azərbaycan mətbuat tarixinin, qədim əlyazmaların ilk peşəkar araşdırmaçısı və publisisti olan fədakar alim Salman Mümtaz topladığı misilsiz arxivlə birgə məhv edilmiş, 1941-ci ildə Rusiyadakı Oryol həbsxanasında güllələnmişdi. Cümhuriyyət dövrü mətbuatında milli maraqları qoruyan kəskin analitik yazıların müəllifi Yusif Vəzir Çəmənzəminli uzun təqiblərdən sonra Qorki vilayətindəki düşərgəyə göndərilmiş və 1943-cü ildə orada ağır şəraitdə vəfat etmişdi. "Maarif və mədəniyyət" jurnalının redaktoru, xalq maarifinin inkişafında böyük xidmətləri olan yazıçı-publisist Tağı Şahbazi Simurğ mətbuatda gənclərin milli ruhda tərbiyə olunmasını müdafiə etdiyi üçün 1937-ci ildə sovet cəza maşınının qurbanı olmuşdu. Xəlil İbrahim 1938-ci ildə "əks-inqilabçı" kimi güllələnmişdi. Bəkir Çobanzadə latın qrafikalı əlifbaya keçid mətbuatını idarə etdiyi dövrdə "pantürkizm" ittihamı ilə 1937-ci ildə edam hökmü almışdı. "Rəhbər", "Məktəb" dərgilərinin fəal yazarı, pedaqoji mətbuatın rəhbərlərindən biri Qulam Bağırov 1938-ci ildə Qırmızı terrorun qurbanı olmuşdu. Əli Nazim (Mahmudov) 1937-ci ildə həbs edilərək güllələnmişdi. Hənəfi Zeynallı 1937-ci ildə xalq düşməni elan edilərək ölüm hökmü verilmişdi. Tərcüməçi, publisist, Bakı qazısı və dini-ictimai mətbuatın fəal yazarı Mir Cəfər Mir Məhəmməd Kərim 1938-ci il martın 2-də NKVD üçlüyünün qərarı ilə güllələnmişdir. Azərbaycan mətbuat tarixinin və ozan sənətinin ilk araşdırmaçılarından biri, mühacirət mətbuatı ilə gizli əlaqədə ittiham olunan publisist Əmin Abidin taleyi də belə olmuşdu. Vəli Xuluflu isə 1937-ci ildə repressiya edilmişdi. "Maarif işçisi" jurnalının redaktoru, dövlət xadimi və tənqidçi Mustafa Quliyev 1938-ci ildə sovet cəza maşını tərəfindən ölüm hökmünə məruz qalmışdı.

Repressiya dalğası təkcə ölkə daxilindəki mətbuat xadimlərini hədəfə almırdı, həm də Azərbaycan jurnalistikasını iki yerə bölmüşdü: vətəndə qalanlar və güllələnənlər ilə mühacirətə gedib azad sözü yaşadanlar. Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Ceyhun bəy Hacıbəyli, Şəfi bəy Rüstəmbəyli kimi nəhəng mətbuat fədailəri sovet işğalından sonra xaricə - Türkiyəyə, Fransaya, Almaniyaya mühacirət etmək məcburiyyətində qalmışdılar. Onlar mühacirətdə "İstiqlal", "Qurtuluş", "Azərbaycan" kimi qəzet və jurnallar nəşr edərək sovet rejiminin törətdiyi qırğınları, mətbuatın boğulmasını beynəlxalq müstəvidə ifşa edirdilər. Lakin onların vətəndə qalan qohumları, redaksiya dostları sovet xüsusi xidmət orqanları tərəfindən amansızcasına cəzalandırılır, ailələri Qazaxıstanın qum düzlərinə ("Vətən xainlərinin xanımları üçün Akmola düşərgəsi" - ALJİR) sürgün edilirdi.

Həmin dövrdə qəzet səhifələrindən milli ruhlu bütün ifadələr, tarixi faktlar tər-təmiz silinirdi. Jurnalistika sahəsi sərbəst yaradıcılıq məkanı olmaqdan çıxıb partiya plenumlarının qərarlarını kor-koranə tirajlayan bir mexanizmə çevrilirdi. Hər bir jurnalist iş masasının arxasında əyləşərkən yazdığı tək bir cümləyə, hətta buraxılan tək bir səhvə görə gecə evindən aparıla biləcəyi qorxusunu yaşayırdı.

Totalitar sovet rejimi düşünürdü ki, qələm sahiblərini fiziki olaraq yox etməklə onların yaratdığı milli təfəkkürü və mətbuat ənənəsini birdəfəlik yaddaşlardan silə biləcək. Lakin zaman ən böyük və ədalətli hakimdir. SSRİ-nin qurulmasından onilliklər keçdi, o nəhəng imperiya və onun qanlı ideologiyası tarixə gömüldü. Bu gün müstəqil Azərbaycan dövlətində həmin o repressiya qurbanı olmuş mətbuat xadimlərinin adları fəxrlə anılır, vaxtilə yandırılan, qadağan edilən məqalələri və kitabları yenidən nəşr olunaraq gənc nəslə ötürülür. Azad söz uğrunda canından keçən Salman Mümtazların, Əhməd Cavadların, Seyid Hüseynlərin qanı bahasına qorunan prinsiplər bu gün müstəqil və azad Azərbaycan jurnalistikasının ən möhkəm təməl daşını təşkil edir.




## Gecikmiş təsəlli

Stalinin ölümündən və onun şəxsiyyətinə pərəstişin ifşa olunmasından sonra - 1950-ci illərin ortalarında sovet hüquq sistemi özü ziyalılara qarşı verilən ittihamların tamamilə saxta olduğunu etiraf etməyə məcbur oldu. SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının bəraət (reabilitasiya) sənədlərində qeyd olunurdu: "Əhməd Cavad Axundzadə, Salman Mümtaz Əsgərov və digərlərinin işi üzrə aparılmış təkrar yoxlama göstərir ki, onlara qarşı irəli sürülmüş əks-inqilabi fəaliyyət və xəyanət ittihamları tamamilə əsassızdır. İstintaq materialları saxtalaşdırılmış, müttəhimlərin ifadələri qanunsuz üsullarla alınmışdır. Cinayət tərkibi olmadığı üçün hökm ləğv edilir və onlara ölümündən sonra tam bəraət verilir" (SSRİ Ali Məhkəməsinin Bəraət Qərarından (1955-1956-cı illər).

Bu sənədlər gecikmiş bir təsəlli olsa da, tarixin ən böyük hökmü idi. Lakin zaman sübut etdi ki, imperiyalar keçicidir, azad söz isə əbədidir.

Fədakarlıq təkcə keçmişdə qalmayıb. Yaxın tariximizdə də həyatı bahasına həqiqətləri tarixə köçürən qəhrəmanlarımız var: Qarabağ müharibəsinin ilk illərində qaynar nöqtələrdən reportajlar hazırlayan, Xocalı faciəsini dünyaya çatdıran və 1991-ci ildə Qarakənd üzərində helikopterin vurulması nəticəsində şəhid olan telejurnalist Alı Mustafayev, Xocalı soyqırımının dəhşətlərini dünyaya nümayiş etdirən yeganə videogörüntüləri canı bahasına lentə almış, 1992-ci ildə cəbhədə reportaj apararkən şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayev, "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri kimi Qarabağda ermənipərəst qüvvələrin törətdiyi vəhşilikləri yazarkən 1991-ci ildə Laçın-Şuşa yolunda pusquya salınaraq qətlə yetirilən ilk şəhid qadın jurnalistimiz Salatın Əsgərova, 2020-ci il Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdəki erməni vandalizmini lentə alarkən 2021-ci ildə Kəlbəcərdə tank əleyhinə minaya düşərək şəhid olan Məhərrəm İbrahimov (AZƏRTAC) və Sirac Abışov (AzTV). Uzadılması mümkün olan bu xronologiya sübut edir ki, Azərbaycanda fədakar jurnalistika, sadəcə, bir peşə deyil, vətəndaşlıq və şərəf missiyasıdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müstəqilliyə gedən yolun strateji təməli



**Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində xalqın milli azadlıq mübarizəsinin parlaq təzahürü olan taleyüklü mərhələlər mövcuddur. Müasir müstəqil dövlətimizin qurucusu, milli intibahımızın memarı olan Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti ilə bağlı bütün məqamlar xalqımızın dövlətçilik təfəkkürünün, siyasi şüurunun və milli ruhunun bərpa olunduğu mühüm mərhələləri təşkil edir. Ötən əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında cərəyan edən ictimai-siyasi proseslər, xüsusilə ittifaq miqyasında müşahidə olunan sistem böhranı Azərbaycanda istiqlaliyyət arzularının yenidən alovlanmasına tarixi zəmin yaratmışdı.**

Lakin SSRİ-nin süqutuna doğru gedən bu mürəkkəb mərhələdə və xüsusilə onun tam dağılmasından sonra Azərbaycan olduqca ağır siyasi bəlalarla, ərazi bütövlüyünün pozulması, daxili xaosla üz-üzə qalmışdı. SSRİ rəhbərliyinin erməni separatizmini açıq dəstəkləməsi və respublikadakı yerli hakimiyyətin xalqın haqlı tələblərinə qarşı apardığı təqib, təzyiq və repressiya siyasəti şəraitində ölkəni gözlənilən dövlətçilik iflasından xilas edə biləcək dahi rəhbərə, təcrübəli və iradəli milli liderə tarixi ehtiyac yaranmışdı. Belə çətin və riskli geosiyasi məqamda daim öz xalqının taleyini düşünən, millətin yanında olmağı şəxsi təhlükəsizliyindən üstün tutan Ümummilli Lider Heydər Əliyev Moskvadan Azərbaycana qayıtmaq barədə qəti qərar qəbul etmişdi. Böyük dövlət xadimi Moskvada nə qədər ciddi nəzarət və təzyiqlər altında yaşamışdısa, Azərbaycanda da imperiya mərkəzinin diktəsi ilə hərəkət edən oyuncaq hakimiyyət tərəfindən Heydər Əliyevə qarşı maneələr, süni məhdudiyyətlər hazırlanmışdı.

Bütün süni əngəllərə və real təhlükələrə baxmayaraq, Ümummilli Lider 1990-cı il iyulun 20-də Moskvadan Bakıya gəlsə də, rəsmi dairələrin inzibati təzyiqləri fonunda Heydər Əliyevin paytaxtda fəaliyyətinə, xalqla birbaşa ünsiyyətinə qətiyyən imkan verilmədi. Buna görə dahi şəxsiyyət cəmi iki gün sonra, 1990-cı il iyulun 22-də doğulub boya-başa çatdığı Naxçıvana yollandı. Heydər Əliyevin Naxçıvana gəlişi milli maraqların müdafiəsi naminə böyük siyasətə fəal, birmənalı, ardıcıl və qətiyyətli şəkildə qayıdış idi. Bu addım təkcə coğrafi baxımdan təcrid olunmuş qədim Naxçıvanın deyil, bütövlükdə Azərbaycanın siyasi tarixinin mütərəqqi və keyfiyyətcə tam fərqli dövrünün strateji təməlini qoydu.

Ölkəmizin çətin dövründə Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ümummilli Liderin ata ocağına qayıtması Naxçıvanı təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan əhalisinin mütəşəkkil və yekdil iradəsi nəticəsində Heydər Əliyevin həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə xalq deputatı seçilməsi onun siyasi fəaliyyətinə hüquqi və demokratik legitimlik qazandırdı. Naxçıvandan başlayan milli dirçəliş dalğası qısa müddətdə bütöv Azərbaycan miqyasında aparıcı ideoloji qüvvəyə çevrilərək, real müstəqil dövlətçilik təsisatlarının bərpasını və milli həmrəyliyi sürətləndirdi.

Dahi şəxsiyyətin rəhbərliyi altında sovet imperiyasının siyasi-ideoloji sütunlarına ilk ciddi, sistemli və sarsıdıcı zərbə 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin yeni tərkibdə keçirilən birinci sessiyasında qəbul edilən tarixi qərarlar vasitəsilə endirildi. Heydər Əliyevin şəxsi rəhbərliyi, fenomenal cəsarəti və siyasi uzaqgörənliyi sayəsində muxtar respublikanın rəsmi adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması, qurumun "Naxçıvan Muxtar Respublikası" adlandırılması hələ tam süqut etməmiş, nəhəng hərbi-repressiv aparata malik olan bir imperiyaya qarşı meydan oxumaq demək idi.

Həmin tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il noyabrın 9-da qəbul etdiyi, lakin sovet işğalı dövründə qadağan olunmuş üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiqlənməsi və bu bayrağın bütövlükdə Azərbaycanın dövlət rəmzi kimi qəbul edilməsi barədə məsələnin respublika Ali Soveti qarşısında vəsatət olaraq qaldırılması milli dövlətçilik intibahının bünövrəsini qoydu. 1990-cı il noyabrın 21-də isə daha bir mühüm və cəsarətli addım atılaraq, 1990-cı il yanvarın 20-də sovet ordusunun Bakıda törətdiyi qanlı qırğına - 20 Yanvar faciəsinə ilk dəfə rəsmi dövlət sənədi səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Bunun ardınca SSRİ-nin yeniləşmiş formada saxlanılması ilə bağlı 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunun Naxçıvan ərazisində qətiyyətlə boykot edilməsi imperiya rejiminin legitimliyinin süqutunu bütün dünyaya nümayiş etdirdi.

Naxçıvandan idarə olunan bu siyasi və hüquqi proseslərin məntiqi nəticəsi olaraq, 1991-ci il avqustun 30-da Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" bəyannamə qəbul edilməsi Ulu Öndərin Naxçıvanda ucaltdığı müstəqillik amalının bütöv bir ölkənin rəsmi strateji xəttinə çevrilməsinin birbaşa təsdiqi idi.

1991-ci il sentyabrın əvvəllərində Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzünün genişlənməsi, Naxçıvanın sərhəd kəndlərinə intensiv hücumların təşkil olunması və muxtar respublikanın kommunikasiya xətlərinin kəsilərək tamamilə təcrid edilməsi regionu fiziki məhv olmaq sınağı qarşısında qoymuşdu. Belə gərgin geosiyasi şəraitdə muxtar respublika əhalisinin təkidli tələbi ilə 1991-ci il sentyabrın 1-də başlayan ümumxalq hərəkatı öz müsbət nəticəsini verdi və həmin il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi regionun işğaldan xilasını birmənalı olaraq şərtləndirdi. Bundan cəmi dörd gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Dövlət Milli Müdafiə Komitəsinin yaradılması haqqında fərmanın imzalanması müasir Azərbaycanın ordu quruculuğu istiqamətində atılmış ən fundamental və praktiki addım idi. Bakıdakı mərkəzi rəhbərliyin hərbi sahədəki uğursuzluqları fonunda 1991-ci il oktyabrın 26-da "Naxçıvan Muxtar Respublikasında yerləşən silahlı qüvvələrin hissələrinin statusu haqqında" Ali Məclis tərəfindən qəbul edilən qərar və onun yüksək diplomatik məharətlə icra olunması nəticəsində bölgədəki keçmiş sovet hərbi hissələrinin və rus qoşunlarının mərhələli şəkildə, qan tökülmədən çıxarılması təmin edildi. Bu dahi taktika çərçivəsində 1992-ci ilin iyul-avqust aylarında bölgəni tərk edən keçmiş SSRİ Müdafiə Nazirliyinin 75-ci motoatıcı diviziyasının bütün silah-sursat, ağır texnika və infrastruktur bazası yerli dövlət strukturlarına, Dövlət Milli Müdafiə Komitəsinə təhvil verildi.

Bu zəngin hərbi-texniki bazanın təməlində Azərbaycan Silahlı Qüvvələrinin tərkibində ilk nizami hərbi birləşmə olan 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqadanın təşkil olunması və 1992-ci il oktyabrın 9-da Naxçıvan şəhərində müstəqil dövlətimizin ilk rəsmi hərbi paradının keçirilməsi düşmənin bütün işğalçılıq planlarını birdəfəlik alt-üst etdi, Naxçıvanın təhlükəsizliyini etibarlı şəkildə qorudu.

Xüsusi vurğulamaq lazımdır ki, Naxçıvanın müqəddəratı və müdafiəsi olduqca ağır iqtisadi, nəqliyyat və sosial blokada şəraitində həyata keçirilirdi. Naxçıvana təbii qazın və elektrik enerjisinin verilməsinin tamamilə dayandırılması bölgəni qaranlığa, soyuğa və istehsalat böhranına qərq etmişdi. İstər Ayaz Mütəllibov iqtidarının, istərsə də 1992-ci ilin yayında hakimiyyətə gələn AXC-Müsavat rəhbərliyinin muxtar respublikanın çox ağır sosial-iqtisadi durumuna qarşı nümayiş etdirdiyi laqeyd, siyasi maraqlardan doğan zərərli və ögey münasibət mövcud humanitar böhranı daha da dərinləşdirirdi. Belə humanitar fəlakət ərəfəsində yalnız Heydər Əliyevin böyük şəxsi nüfuzu, sarsılmaz dövlətçilik iradəsi və qonşu dövlətlərlə, Türkiyə və İranla qurduğu birbaşa, çevik diplomatik əlaqələr regionu tam məhv olmaqdan qorudu. Ulu Öndərin Ankaraya səfəri və apardığı intensiv danışıqlar nəticəsində 1992-ci il mayın 28-də Araz çayı üzərində istifadəyə verilən, Azərbaycanla Türkiyəni birbaşa birləşdirən və tarixə "Ümid körpüsü" kimi daxil olan mühüm infrastruktur obyekti iqtisadi blokadanı yararaq yüz minlərlə insanın həyat damarına çevrildi.

Ölkədə daxili etnik-siyasi çəkişmələrin, separatçılıq meyillərinin, hərbi xaosun və dövlət idarəçiliyindəki səriştəsizliyin pik nöqtəyə çatdığı dövrdə Azərbaycan xalqının gələcəyə olan ümidləri və nicat axtarışları məhz xilaskar Heydər Əliyev şəxsiyyəti ətrafında birləşdi. Azərbaycanın tanınmış ziyalılarının çoxsaylı müraciətlərinə cavab olaraq, 1992-ci il noyabrın 21-də çətin blokada şəraitində, rabitə və nəqliyyat məhdudiyyətləri fonunda, habelə rəsmi Bakının bütün inzibati maneələrinə baxmayaraq, Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi ümummilli miqyaslı fundamental siyasi hadisəyə çevrildi. Bu partiya qısa müddətdə bütöv ölkəni bürüyən dərin siyasi-hərbi böhrandan çıxış yolunu göstərən, cəmiyyəti milli ideya ətrafında birləşdirən yeganə alternativ və intellektual siyasi güc statusunu qazandı.

Heydər Əliyevin Naxçıvandan başlatdığı böyük dövlətçilik və xilaskarlıq missiyası 1993-cü il iyun ayının 9-da xalqın təkidli tələbi ilə onun respublika rəhbərliyinə qayıtması ilə nəticələndi. Ulu Öndər zəngin təcrübəsindən və yüksək idarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkədəki kütləvi inamsızlıq, hərcmərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

1993-2003-cü illər Azərbaycanın dövlətçilik tarixinə xaosdan qurtuluş, daxili sabitlik və qlobal inteqrasiya mərhələsi kimi daxil olmuşdur. Ölkədə hökm sürən siyasi və iqtisadi böhranı, vətəndaş müharibəsi təhlükəsini və separatçılıq meyillərini qətiyyətlə aradan qaldıran Heydər Əliyev ilk növbədə daxili ictimai-siyasi sabitliyi bərqərar etdi. Sabitlik mühitinin yaradılması ölkədə genişmiqyaslı dövlət quruculuğuna, müstəqil respublikamızın Konstitusiyasının qəbuluna və fundamental hüquqi islahatların aparılmasına yol açdı. Qısa müddətdə görülən nəhəng işlər, atılan fundamental addımlar nəticəsində Azərbaycan dağılmaq təhlükəsi ilə üz-üzə qalan bir ölkədən daxili sabitliyi təmin edilmiş, güclü iqtisadi bünövrəyə malik, regionun aparıcı dövlətlərindən birinə çevrildi.

Ulu Öndərin uzaqgörən və milli maraqlara əsaslanan dövlətçilik siyasətinin 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin ərazi bütövlüyünün tam bərpa olunması, Azərbaycanın öz tarixinin ən qüdrətli, iqtisadi cəhətdən müstəqil, hərbi baxımdan sarsılmaz və beynəlxalq miqyasda söz sahibi olan lider dövləti səviyyəsinə yüksəlməsi ilə nəticələndi.

*İllər ötdükcə bir daha əmin oluruq ki, Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Məhz bu kurs ölkəmizin bu gününün, sabahının və gələcəyinin dayanıqlı inkişaf yolu və əsas təminatıdır. Ümummilli Liderin ideyaları hər zaman Azərbaycanın bu gününə və gələcəyə gedən yollarına işıq salacaq.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

# Ulu Öndər xilas missiyasına Naxçıvandan başladı

**Ötən əsrin 80-ci illərinin sonlarından etibarən SSRİ miqyasında, o cümlədən ittifaq respublikalarında milli özünüdərk düşüncəsinin, siyasi fəallığın yüksəlməsi prosesi başlandı. Həmin dövrdə Sovet Konstitusiyasının 6-cı maddəsində - yəni Kommunist Partiyasının rəhbər rolunu təsbit edən müddəada dəyişiklik aparıldı, prezidentlik institutu yaradıldı, çoxmandatlı əsasda xalq deputatları seçkiləri keçirildi.**

Bu addımlar imperiyanın dağılmasının qarşısını almağa yönəlsə də, real nəticə vermədi. Çünki qeyd edilən proseslər mahiyyət etibarilə Kremlin labüd süqut taleyi qarşısında vaxt udmaq, ictimai narazılığı nəzarətdə saxlamaq üçün apardığı təbliğat xarakterli tədbirlər idi. M.Qorbaçovun ətrafında cəmləşmiş erməni mənşəli siyasi dairələr isə yaranmış vəziyyəti Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş separatçı planlarını həyata keçirmək üçün fürsət kimi görürdülər.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunları Bakı şəhərinə - əliyalın vətəndaşların üzərinə yeridildi. Hərbi müdaxilə nəticəsində 131 nəfər mülki şəxs qətlə yetirildi, 744 nəfər yaralandı, 400 nəfər həbs olundu.

Moskvada yaşayan və imperiya rəhbərliyinin ağır təzyiqləri ilə üzləşən Ulu Öndər Heydər Əliyev faciənin səhəri günü oğlu İlham Əliyev ilə birgə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi, heç bir təzyiq və təhdiddən, həbs olunmaq, hətta ölüm təhlükəsindən çəkinməyərək imperiya rəhbərliyinin, şəxsən M.S.Qorbaçovun cinayətlərini bütün dünyanın gözləri önündə ifşa etdi. Heydər Əliyevin mətbuat konfransındakı çıxışı 20 Yanvar faciəsi haqqında ilk düzgün siyasi qiymət idi.

Çətin məqamlarda xalqının yanında olmağı məqsədəuyğun sayan Heydər Əliyev 1990-cı il iyulun 20-də Azərbaycana qayıtdı. Amma bu böyük siyasətçi Moskvada nə qədər təhdid və təzyiqlər altında yaşayırdısa, Bakıda da xalqa zidd hakimiyyət tərəfindən ona qarşı bir o qədər təzyiq və hədələr gözlənilirdi. Bütün təzyiqlərə baxmayaraq, Ümummilli Lider Heydər Əliyev Bakıya gəldi. Bundan iki gün sonra - iyulun 22-də isə hakimiyyətin təhdidləri nəticəsində Bakıdan Naxçıvana gəldi. Bu qayıdış təkcə qədim Naxçıvanın deyil, ümumilikdə Azərbaycan tarixinin yeni bir dövrünün başlanğıcı oldu. Ulu Öndərin Moskvadan Naxçıvana qayıdışı, o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, vətənə, böyük siyasətə fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdışı idi.

22 iyul 1990 -cı il salnaməmizə yazılan ən şanslı tarixlərdən biridir. Naxçıvana qayıdan Ulu Öndəri həmyerliləri doğma övladı kimi qarşıladılar.

Həmin illərdə Naxçıvan olduqca gərgin bir vəziyyətdə idi. Bu dövrdə Dağlıq Qarabağ problemi ətrafında yayılan dalğanın zərbəsinə sərhədyanı kəndləri ermənilər tərəfindən hücumlara məruz qalan, dincliyi əlindən alınan Naxçıvan, doğrudan da, "taleyin ümidinə buraxılmış tənha bir ada"nı xatırladırdı.

Ölkənin çətin bir dövründə Ulu Öndər Azərbaycan xalqının və dövlətinin xilas missiyasına Naxçıvandan başladı. Ulu Öndərin 1990-cı ilin ortalarında, Naxçıvanın çətin vaxtlarında bura qayıtması bu qədim Azərbaycan torpağını təhlükələrdən sovuşdurdu. Ən əsası, bu qayıdışla Azərbaycanda müstəqillik uğrunda mübarizə özünün yeni mərhələsinə qədəm qoydu, imperiya qüvvələri ilə mübarizə daha da genişləndi. Xalqımızın dahi oğlunun alovlandırdığı istiqlal mücadiləsi milli dirçəliş prosesinin bütün Azərbaycanda aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. SSRİ hökumətinin hələ fəaliyyətdə olduğu dövrdə Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması zamanın dahisi Heydər Əliyevin sarsılmaz siyasi iradəsinin və böyük uzaqgörənliyinin nəticəsində mümkün oldu. Eyni zamanda həmin sessiyada dahi rəhbərin təklifi ilə Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi adlandırılması da, sadəcə, sözün redaktəsi deyildi. Bu, dünyada Sovet İttifaqı kimi tanınan, siyasi sistemini sovetlər üstündə quran möhtəşəm bir ölkənin strukturunda dəyişiklik edilməsi demək idi. 1990-cı il noyabrın 17-də Ulu Öndərimizin sədrliyi ilə keçirilən tarixi sessiyada Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı muxtar respublikanın Dövlət bayrağı kimi qəbul olundu. Bütün bunlar yalnız və yalnız Naxçıvan Muxtar Respublika Ali Məclisinin sessiyasına sədrlik edən Ulu Öndərin həm böyük siyasi iradəsinin, yüksək azərbaycançılıq idealının, həm də qeyri-adi cəsarətinin sayəsində həyata keçirilmişdi.

Naxçıvanda atılan bu addımlar tezliklə bütün Azərbaycan üçün nümunəyə çevrildi. Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 5 fevral tarixli sessiyasında bir sıra tarixi qərarlar qəbul olundu. Dövlətin adı - "Azərbaycan SSR" dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı Dövlət bayrağı kimi təsdiqləndi.

Ümummilli Liderin uzaqgörənliyini tarix bir daha sübuta yetirdi, 1991-ci ilin 30 avqustunda Azərbaycan Respublikası Ali Sovetinin sessiyası "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında Bəyannamə" qəbul etdi. Bu sənədin qəbul olunduğu növbədənkənar sessiyada Ulu Öndər Heydər Əliyev də Azərbaycanın müstəqilliyinin elan olunması ilə bağlı tarixi çıxış etdi. Belə bir bəyannamənin qəbulu ölkənin SSRİ tərkibindən çıxması və suveren dövlət kimi beynəlxalq hüquq subyektliyini bərpa etməsi yolunda atılmış ilk fundamental siyasi-hüquqi addımlardan oldu.

Ulu Öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi müasir müstəqil Azərbaycanın dövlətçilik tarixinin ən mühüm səhifələrindən birini təşkil edir. Siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü işlərlə, atdığı tarixi əhəmiyyətli addımlarla muxtar respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etdi. Ali Məclisin 16 dekabr 1991-ci il tarixli sessiyasında isə "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" qərar qəbul olundu. Ali Məclisin sədri Heydər Əliyev müzakirələrə yekun vurarkən geniş nitq söylədi və məsələnin siyasi əhəmiyyətinə xüsusi önəm verdi: "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə deyirik ki, bu, Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".

Ötən əsrin 90-cı illərinin əvvəlindən etibarən ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər də bir daha təsdiqlədi ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Ölkədə 1991-1993-cü illərdə hakimiyyətdə xalqın etimad göstərdiyi siyasi qüvvənin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhranın, vətəndaş itaətsizliyinin, xaos və anarxiyanın yaranmasına rəvac vermişdi. Belə ağır şəraitdə respublikanın tərəqqipərvər qüvvələri, mütərəqqi ruhlu ziyalıları çıxış yolunu Ulu Öndər Heydər Əliyev kimi müdrik şəxsiyyətin hakimiyyətə gəlməsində görür, hər cür riskə rəğmən bu istəklərini açıq ifadə etməkdən çəkinmirdilər.

Xalqın rəyini ifadə edən bir qrup ziyalı Ümummilli Liderə müraciətində ölkəni anarxiya mühitindən çıxarıb aydın sabaha doğru aparacaq, müstəqilliyimizi əbədi və yenilməz edəcək, millətimizi bir bayraq, eyni amal ətrafında birləşdirəcək, milli həmrəyliyə, vətəndaş cəmiyyətinə qovuşduracaq siyasi partiyanın yaradılmasına yardımçı olmağı xahiş edirdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət Heydər Əliyevdir. Vətənpərvər Azərbaycan ziyalılarının həmin müraciəti sonralar çağdaş tariximizə məşhur "91-lərin müraciəti" adı ilə daxil oldu. Bu tarixi müraciət, əslində, bütün Azərbaycan vətəndaşlarının istəyi, arzusu, haqlı tələbi idi. Xalqının taleyinə heç zaman biganə qalmayan, respublikanın dağılmasına dözməyən Ulu Öndər ziyalıların müraciətinə müsbət cavab verdi.

1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis qurultayı keçirildi, Ulu Öndər Heydər Əliyev yekdilliklə təşkilata sədr seçildi. Yeni Azərbaycan Partiyasının qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi.

1993-cü il iyunun 9-da xalqın təkidi ilə Bakıya qayıdan Heydər Əliyev fövqəlidarəçilik keyfiyyətlərindən məharətlə bəhrələnərək ölkəni vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardı, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil oldu. İyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi isə ölkədəki kütləvi inamsızlıq, hərc-mərclik mühitinin aradan qalxmasına, siyasi gərginliyin tədricən azalmasına, sözün həqiqi mənasında xalqın böyük fəlakətlərdən qurtulmasına real zəmin yaratdı.

Ulu Öndərin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdandan sonra da Naxçıvanla bağlı gerçəkləşdirdiyi kompleks layihələr blokada şəraitində də inkişaf etməyin, tarixi nailiyyətlər qazanmağın örnəyini dünyaya sərgilədi. Bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də davam etdirilərək özünün ən yüksək mərhələsinə çatdı. Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında Prezident sərəncamı imzalanmış, muxtar respublikanın sosial-iqtisadi həyatının ayrı-ayrı sahələrinin və onun müxtəlif rayonlarının inkişafı ilə bağlı sənədlər qəbul edilmişdir. Bütün bunlar da Naxçıvan Muxtar Respublikasının hərtərəfli tərəqqisini təmin etmişdir. Prezident İlham Əliyevin 2023-cü il iyun ayının 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamı isə müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirdi.

2020-ci ilin Vətən müharibəsində, 2023-cü ilin antiterror əməliyyatında Azərbaycan xalqı bilavasitə Prezident İlham Əliyevin müdrik dövlət rəhbərliyi, təfəkkürü, strateqliyi, diplomatik-siyasi ustalığı və sərkərdəlik məharəti nəticəsində şanlı tarix yazdı. Doğma Vətən naminə çarpışan Azərbaycan igidlərinə müdrik, qətiyyətli və rəşadətli sərkərdə İlham Əliyev bilavasitə özü başçılıq etdi. Müzəffər Ali Baş Komandan ordumuzun gücü ilə əldə etdiyimiz şanlı Qələbəyə, Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bütün dünyada - hətta Ermənistanda da qəbul edilməsi faktına qədər bu mövqeyindən bir addım da olsun geri çəkilmədi. Həyata keçirdiyi siyasəti, diplomatiyanı, strateji gedişləri məhz belə bir haqlı mövqe, belə bir aydın həqiqət ətrafında qurdu.

Bu, qətiyyətin təntənəsidir: Azərbaycan Prezidenti əsrlərin müşkülünü yoluna qoydu, təkcə Azərbaycanı deyil, ümumilikdə Cənubi Qafqazı böyük bir çıxılmazlıqdan aydın, rəvan inkişaf yoluna çıxardı, əsrlərlə bu torpaqlarda davamlı sülhün, mehriban qonşuluq münasibətlərinin, faydalı əməkdaşlıq əlaqələrinin olmasını arzulayan, bu amal uğrunda çalışan düşüncə adamlarımızın arzularını reallığa qovuşdurdu.

Bu gün ölkəmizin həyatında əldə edilən böyük nailiyyətlərin əsasında fəal yaradıcı gücə malik olan Ulu Öndərin milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. "Mənim yaratdığım hər bir şey mənim üçün əzizdir. Zavod da, fabrik də, elektrik stansiyaları da, yol da, körpü də, ev də, bina da, saray da - hər bir şey. Amma mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" fikirləri Ulu Öndər Heydər Əliyevin xalqımızın müstəqilliyinin qorunub yaşadılması uğrunda misilsiz xidmətinin təzahürüdür.

*Xalqın ümid çırağına çevrilərək ürəklərdə əbədi qalmaq heç də bütün liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş zamanın dahisi Heydər Əliyev xalqın qəlbində özünə əbədi abidə ucaldıb.*

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məclisinin sədr müavini,***
***tarix üzrə fəlsəfə doktoru***

# Münasibətlər daha sistemli və çoxşaxəli xarakter alacaq

**Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan-Almaniya münasibətlərinin gələcək inkişaf perspektivləri baxımından mühüm siyasi hadisə kimi dəyərləndirilə bilər. Səfər yalnız ikitərəfli münasibətlərin növbəti mərhələsi deyil, həm də Avropada dəyişən geosiyasi və geoiqtisadi reallıqlar fonunda Bakı ilə Berlin arasında əməkdaşlığın məzmununun genişləndiyini göstərən əhəmiyyətli göstəricidir.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, son illər Avropanın enerji təhlükəsizliyi, qlobal nəqliyyat marşrutlarının transformasiyası, Orta dəhlizin strateji əhəmiyyətinin artması və Cənubi Qafqazda formalaşmış yeni reallıqlar Azərbaycanı Almaniya üçün daha mühüm tərəfdaşlardan birinə çevirib. Berlinə səfər çərçivəsində Prezident İlham Əliyevin Almaniya Kansleri Fridrix Merts ilə keçirdiyi görüş, eləcə də Alman İqtisadiyyatının Şərq Komitəsinin rəhbərliyi ilə apardığı müzakirələr münasibətlərin gələcək inkişaf istiqamətlərini müəyyən edən mühüm siyasi dialoq oldu. Tərəflər enerji təhlükəsizliyi, sənaye kooperasiyası, investisiyalar, nəqliyyat-logistika, rəqəmsal texnologiyalar və "yaşıl enerji" sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə etdilər. Bu isə göstərir ki, Azərbaycan və Almaniya münasibətləri artıq ənənəvi enerji əməkdaşlığından daha geniş strateji gündəmə keçid edir.

Deputatın sözlərinə görə, Azərbaycan və Almaniya arasında münasibətlər uzun illər ərzində qarşılıqlı maraqlar əsasında inkişaf edib: "Bununla belə bəzi dövrlərdə Avropa İttifaqının ayrı-ayrı institutlarının Azərbaycana münasibətdə nümayiş etdirdiyi selektiv yanaşma siyasi dialoqun dinamikasına müəyyən təsir göstərmişdi. Lakin Almaniya hər zaman iqtisadi praqmatizmi ilə seçilən dövlət olub.



Berlin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu, regionun sabitliyinə verdiyi töhfəni və nəqliyyat-logistika imkanlarını strateji baxımdan yüksək qiymətləndirib. Məhz buna görə də müəyyən siyasi fikir ayrılıqları iqtisadi əməkdaşlığın inkişafına ciddi maneə yarada bilməyib. Hazırda isə münasibətlərin inkişafı üçün daha əlverişli beynəlxalq şərait formalaşıb. Avropada enerji təhlükəsizliyi artıq iqtisadi məsələ olmaqdan çıxaraq milli təhlükəsizlik məsələsinə çevrilib. Azərbaycan isə son illərdə özünü etibarlı və məsuliyyətli enerji tərəfdaşı kimi təsdiqləyib. "Cənub qaz dəhlizi"nin uğurlu fəaliyyəti, Azərbaycanın Avropaya qaz ixracının ardıcıl şəkildə artırılması və uzunmüddətli öhdəliklərə sadiqliyi Almaniya da daxil olmaqla, Avropa dövlətləri üçün ölkəmizin əhəmiyyətini daha da artırıb".

Azərbaycanın strateji əhəmiyyətinin yalnız enerji ilə məhdudlaşmadığını deyən S.Fətəliyeva əlavə edib ki, son illər Orta dəhlizin qlobal logistika sistemində rolu əhəmiyyətli dərəcədə artıb. Avropa ilə Mərkəzi Asiyanı və Çin bazarını birləşdirən bu marşrut qlobal təchizat zəncirlərinin şaxələndirilməsi baxımından xüsusi önəm kəsb edir. Azərbaycanın müasir nəqliyyat infrastrukturu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və digər tranzit imkanları Almaniyanın ixracyönümlü iqtisadiyyatı üçün mühüm üstünlüklər yaradır. Bu səbəbdən Berlin Azərbaycanı yalnız enerji təchizatçısı deyil, həm də Avrasiyanın mühüm logistik qovşaqlarından biri kimi qiymətləndirir. "Diqqətçəkən məqamlardan biri də Almaniyada yeni hökumətin fəaliyyətə başlamasıdır. Kansler Fridrix Mertsin rəhbərlik etdiyi hökumət iqtisadi rəqabət qabiliyyətinin artırılmasını, yeni bazarlara çıxışı və etibarlı tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsini xarici siyasətin əsas prioritetlərindən biri kimi müəyyənləşdirib. Bu yanaşma Azərbaycanla münasibətlərin inkişafı üçün də yeni imkanlar yaradıb. Çünki Azərbaycan regionda sabitlik, siyasi etibarlılıq və uzunmüddətli əməkdaşlıq baxımından Almaniyanın maraqlarına cavab verən azsaylı tərəfdaşlardan biridir. Prezident İlham Əliyevin Alman İqtisadiyyatının Şərq Komitəsinin nümayəndələri ilə görüşü də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Alman şirkətləri Azərbaycanın sənaye parklarında, bərpaolunan enerji layihələrində, rəqəmsal iqtisadiyyatın inkişafında, nəqliyyat-logistika infrastrukturunda və sənaye istehsalında iştirak imkanlarını genişləndirməkdə maraqlıdırlar. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri alman biznesi üçün yeni əməkdaşlıq platformaları yarada bilər. Bu, iqtisadi münasibətlərin keyfiyyətcə yeni mərhələyə keçməsinin göstəricilərindən biridir", - deyə o bildirib.

Deputat qeyd edib ki, münasibətlərin inkişafına təsir edən digər mühüm amil regionda yaranmış yeni siyasi reallıqdır. Azərbaycan öz suverenliyini tam bərpa edib. Artıq Cənubi Qafqazın gündəliyi münaqişə deyil, regional əməkdaşlıq, iqtisadi inteqrasiya və nəqliyyat-kommunikasiya layihələrinin icrasıdır. Avropanın aparıcı dövlətləri, o cümlədən Almaniya da bu reallığı nəzərə alaraq regionla bağlı siyasətini tədricən daha praqmatik əsasda qurmağa başlayır. Bu yanaşma həm iqtisadi maraqların təmin olunmasına, həm də Cənubi Qafqazda uzunmüddətli sabitliyin möhkəmlənməsinə xidmət edir. Müasir beynəlxalq münasibətlər göstərir ki, qarşılıqlı hörmətə, dövlətlərin suverenliyinə və milli maraqların nəzərə alınmasına əsaslanan praqmatik əməkdaşlıq daha dayanıqlı nəticələr verir.

S.Fətəliyeva vurğulayıb ki, bütövlükdə, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan-Almaniya münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir: "Əgər əvvəlki dövrdə əməkdaşlığın əsasını enerji sektoru təşkil edirdisə, hazırda gündəlik sənaye kooperasiyası, yüksək texnologiyalar, rəqəmsal iqtisadiyyat, "yaşıl enerji", logistika və investisiyalar istiqamətində əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənir. Mövcud geosiyasi şərait və tərəflərin qarşılıqlı maraqları nəzərə alındıqda Bakı ilə Berlin arasında münasibətlərin yaxın illərdə daha sistemli, çoxşaxəli və strateji xarakter alacağı gözlənilir".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*



# Azərbaycan və Almaniya arasında strateji tərəfdaşlıq dərinləşir

## Prezident İlham Əliyevin bu ölkəyə rəsmi səfəri və imzalanan tarixi sənədlər Avrasiya məkanında təhlükəsizliyin və iqtisadi əməkdaşlığın gələcək xəttini müəyyənləşdirir

**Geosiyasi reallıqlar və qlobal iqtisadi transformasiyalar dövlətlərarası tərəfdaşlıq formatlarının yenidən nəzərdən keçirilməsini zəruri edir. Bu kontekstdə Cənubi Qafqazın lider dövləti Azərbaycanla Avropanın aparıcı güclərindən sayılan Almaniya arasında qurulan dialoq xüsusi strateji çəkiyə malikdir. Dünyada cərəyan edən mürəkkəb çağırışlar fonunda iki ölkə arasındakı münasibətlərin inkişafı regionda və daha geniş coğrafiyada sabitliyin, eləcə də iqtisadi təhlükəsizliyin təmin edilməsinə mühüm töhfələr verir. Məhz qarşılıqlı maraqlar iki ölkə arasında təmasların intensivləşməsini və münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldilməsini şərtləndirir.**

İyulun 21-də Azərbaycan Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və Kansler Fridrix Mertslə keçirdiyi ali səviyyəli görüşlər, habelə tarixi sənədin imzalanması iki ölkə arasındakı münasibətlərin keyfiyyətcə yeni, strateji müstəviyə keçdiyinin aydın təzahürüdür. Xüsusən Avropanın enerji və nəqliyyat arxitekturasının yenidən formalaşdığı bir dövrdə Avropa İttifaqının iqtisadi lokomotivi olan Almaniyanın Azərbaycanla birbaşa, praqmatik və bərabərhüquqlu dialoqa üstünlük verməsi böyük geoiqtisadi əhəmiyyət kəsb edir.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer dünyada və regionda cərəyan edən hadisələr fonunda Azərbaycanı və Almaniyanı sabitlik adası kimi xarakterizə edib. Ştaynmayer Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu xüsusi vurğulayıb. Müzakirələr zamanı Almaniya Prezidentinin dünyada gedən mürəkkəb proseslər fonunda Azərbaycanı və Almaniyanı "sabitlik adası" kimi xarakterizə etməsi səfərin siyasi çəkisini göstərən mühüm məqamdır. Bu bəyanat Berlinin Bakını Mərkəzi Avrasiya məkanında regional təhlükəsizliyi və proqnozlaşdırılan siyasəti təmin edən etibarlı geosiyasi tərəfdaş kimi qəbul etdiyini sübut edir. Bəzi Qərb paytaxtlarının tərəfli yanaşmalarından fərqli olaraq, Almaniya rəhbərliyi Cənubi Qafqazla bağlı daha balanslı və konstruktiv siyasət yürütməyi üstün tutur.

Görüşlərdə enerji təhlükəsizliyi müstəvisində də əhəmiyyətli mesajlar verilib. Prezident İlham Əliyev Azərbaycanın Avropanın enerji təminatında oynadığı rola toxunaraq, ölkəmizin Almaniya və Avstriyaya təbii qaz ixrac etdiyini diqqətə çatdırıb. "Cənub qaz dəhlizi" və İtaliyanın qazpaylayıcı şəbəkəsi vasitəsilə SOCAR Almaniya şirkətlərini illik təxminən 2 milyard kubmetr həcmində təbii qazla təmin edir. Avropa İttifaqına ixrac edilən Azərbaycan qazının təxminən 90 faizini İtaliya qəbul etdiyindən Almaniya müəssisələri bu resursu Avropanın vahid infrastrukturu daxilindəki svop-əməliyyatları sayəsində əldə edirlər. Təxminən on il müddətinə nəzərdə tutulan bu uzunmüddətli anlaşmalar Almaniyanın enerji təchizatında tək mənşədən asılılığını azaldır, Azərbaycanı isə Avropanın enerji təhlükəsizliyinin əsas mərkəzlərindən birinə çevirir. SOCAR ilə Almaniyanın "Uniper" şirkəti arasında 2025-2026-cı illəri əhatə edən əməkdaşlıq proqramının imzalanması da bu münasibətlərin institusional xarakter aldığını göstərir.

Daha geniş müstəvidə bu proseslər Avropa İttifaqının ümumi siyasəti ilə sıx bağlıdır. Avropa İttifaqı uzun müddətdir ki, Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Bu gün Azərbaycan artıq Avropa İttifaqının 10 üzv dövləti də daxil olmaqla, ümumilikdə 16 ölkəyə təbii qaz ixrac edir. Karbohidrogen resursları ilə yanaşı, "yaşıl enerji"nin ixracı da tərəfdaşlığın yeni strateji istiqamətinə çevrilir. Almaniya Azərbaycanın külək və günəş enerjisi potensialından istifadədə son dərəcə maraqlıdır. Bu, Avropaya enerji mənbələrini şaxələndirmək imkanı verir, Azərbaycana isə bərpaolunan enerji potensialını ixrac məhsuluna çevirmək şansı yaradır.

Ali səviyyəli görüşlərdə Azərbaycan ilə Almaniya arasında münasibətlərin dostluq xarakteri daşıdığı qeyd edilib, iqtisadi və biznes əlaqələrinin inkişafı üçün geniş imkanların olduğu bildirilib. Dövlətimizin başçısının Almaniyaya səfərinin ikitərəfli əməkdaşlığın inkişafına ciddi təkan verəcəyinə əminlik ifadə olunub. Həmçinin Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri xatırladılıb və bu xüsusda Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı qeyd edilib. Eyni zamanda Orta dəhlizin əhəmiyyətinə və bu dəhlizdə Azərbaycanın böyük roluna toxunulub. Qeyd olunub ki, Azərbaycanın Avropa üçün önəmi təkcə enerji ilə məhdudlaşmır. Bu gün ölkəmiz enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları və Avropa ilə Mərkəzi Asiyanı birləşdirən strateji kommunikasiyaların ayrılmaz hissəsi olaraq qiymətləndirilir.

Səfərin mühüm siyasi-hüquqi nailiyyəti Prezident İlham Əliyev və Kansler Fridrix Merts tərəfindən "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə"nin imzalanmasıdır. Bununla bərabər, tərəflər arasında Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına və fəaliyyətinə dair də Birgə Bəyannamə imzalanıb. Bu sənədlər Bakı-Berlin xəttindəki münasibətləri rəsmən strateji tərəfdaşlıq səviyyəsinə qaldırır və iki ölkə arasında əməkdaşlığı vahid strateji çərçivəyə salır. İkili münasibətlər siyasi dialoq, iqtisadiyyat, enerji, təhlükəsizlik, elm, texnologiya, təhsil və humanitar əməkdaşlıq istiqamətlərində uzunmüddətli inkişaf konsepsiyası əsasında formalaşdırılır. Almaniya İtaliyadan sonra Azərbaycanın Qərbi Avropanın böyük dövlətləri ilə strateji çərçivə sənədi imzaladığı ikinci ölkədir. Bu, Azərbaycanın Avropanın aparıcı siyasi və iqtisadi gücləri ilə münasibətlərinin dərinləşməsinin ardıcıl xarakter aldığını nümayiş etdirir.

Prezident İlham Əliyev və Kansler Fridrix Merts birgə mətbuat konfransı zamanı da mühüm bəyanatlar səsləndirdilər. Prezident İlham Əliyev dedi ki, biz artıq strateji dialoqun başlanmasını arzulayırdıq və buna nail olmuşuq: "Əminəm ki, bu gün imzalanmış sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq". Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan-Almaniya əlaqələri təkcə ikitərəfli münasibətlərə yox, bütövlükdə bölgəmizdə əməkdaşlığa, sülhə, əmin-amanlığa öz töhfəsini verəcək. Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, bağlantılarla və tranzit imkanları ilə bağlı da Almaniya-Azərbaycan əməkdaşlığının çox böyük əhəmiyyəti var, çünki Almaniyanın şirkətləri bu istiqamətdə çox böyük uğurlar əldə ediblər. Dövlətimizin başçısı əlavə edib ki, Azərbaycan öz nəqliyyat infrastrukturunu təkmilləşdirir və bir növ Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayır. Kansler Fridrix Merts də Almaniya ilə Azərbaycan arasındakı münasibətlərin çox dinamik şəkildə inkişaf etdiyini vurğulayıb.

Məlumat üçün bildirək ki, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 2025-ci ildə təxminən 1 milyard 376 milyon dollar təşkil edib. 2026-cı ilin ilk altı ayında isə qarşılıqlı ticarət göstəricisi təxminən 573 milyon dollara çatıb. Son beşillik dövrə nəzər saldıqda ticarət həcminin 68 faiz artdığı görünür. Bununla belə Almaniyanın Azərbaycandan idxal etdiyi məhsulların əsas hissəsini xam neft təşkil edir və bu ölkə Azərbaycan neftinin ən böyük alıcıları arasında ilk onluqdadır. Azərbaycan isə Almaniyadan əsasən avtomobillər, maşın və avadanlıqlar, eləcə də yüksəktexnologiyalı elektron cihazlar idxal edir.

İkitərəfli əməkdaşlığın perspektivli istiqamətlərindən biri də Almaniya şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda gedən bərpa-quruculuq prosesinə inteqrasiyasıdır. Azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları alman sənaye nəhənglərinin texnoloji imkanları ilə üst-üstə düşür. Almaniyanın alternativ enerji, şəhərsalma, su resurslarının idarə olunması və ətraf mühitin mühafizəsi sahəsindəki qabaqcıl təcrübəsi bölgədə aparılan genişmiqyaslı reabilitasiya işlərinə mühüm töhfə verə bilər. Bu da alman investorları üçün Azərbaycanda tamamilə yeni və gəlirli fəaliyyət meydanı açır.

Digər tərəfdən, Azərbaycan-Almaniya yaxınlaşması Avropa İttifaqının "Global Gateway" (Qlobal Keçid) strategiyası kontekstində də böyük önəm daşıyır. Berlin Bakının Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olması, kommunikasiyaların açılması və regional inteqrasiya istiqamətindəki təşəbbüslərini dəstəkləyir. Almaniya anlayır ki, "Şərq-Qərb" tranzit şəbəkəsinin fasiləsiz fəaliyyəti məhz Cənubi Qafqazda uzunmüddətli sabitlikdən asılıdır. Bu baxımdan Berlin Ermənistanla sülh müqaviləsinin imzalanması prosesinə də birmənalı dəstəyini ifadə edir.

Bütün bu amillər göstərir ki, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycan-Almaniya münasibətlərində yeni bir era açır. İki ölkə arasında qurulan bu strateji model dəyişən qlobal təhlükəsizlik sistemində dayanıqlı tərəfdaşlığın parlaq nümunəsidir.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Bakı-Berlin siyasi dialoqu yeni müstəviyə qədəm qoyur

**Azərbaycanın xarici siyasətinin fundamental əsaslarını qarşılıqlı hörmət və ehtiram, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq və bərabərhüquqlu əməkdaşlıq prinsipləri təşkil edir. Ölkəmiz bu istiqamətdə ardıcıl siyasət yürütməklə qlobal arenada etibarlı tərəfdaş kimi tanınır, beynəlxalq münasibətlər sistemində mövqeyini möhkəmləndirir və sülhə, təhlükəsizliyə, eləcə də qarşılıqlı faydalı əməkdaşlığın inkişafına töhfələr verir.**

**Milli Məclisin deputatı Rəşad MAHMUDOV** qəzetimizə açıqlamasında deyib ki, Avropa ölkələri ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətində mühüm yer tutur. Ölkəmiz bu qitənin ölkələri ilə siyasi dialoqun genişlənməsində, iqtisadi əlaqələrin dərinləşməsində, enerji təhlükəsizliyinin möhkəmlənməsində maraqlıdır. Digər tərəfdən Prezident İlham Əliyevin praqmatik siyasəti və liderliyi nəticəsində Azərbaycan Avropa üçün etibarlı tərəfdaş kimi öz mövqeyini möhkəmləndirib, qarşılıqlı maraqlara əsaslanan münasibətlər isə yeni inkişaf mərhələsinə yüksəlib. "Bu baxımdan Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri Azərbaycanın Avropa ilə münasibətlərində formalaşmış etimad mühitinin, ölkəmizin beynəlxalq nüfuzunun və artan geosiyasi çəkisinin növbəti ifadəsi kimi yadda qaldı. Dövlət başçısının Almaniyaya rəsmi səfəri ikitərəfli münasibətlərin yeni mərhələyə keçməsi baxımından mühüm siyasi hadisə oldu. Xüsusilə nəzərə almaq lazımdır ki, səfər Almaniya Federal Kansleri Fridrix Mertsin dəvəti əsasında həyata keçirilir və bu da Bakı-Berlin dialoqunun ən yüksək siyasi səviyyədə davam etdirildiyini göstərir", - deyə o əlavə edib.



Deputat bildirib ki, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri zamanı alman iş adamları ilə keçirilən görüşlər səfərin diqqətçəkən məqamları sırasında yer alıb. Bu təmaslar Azərbaycanın iqtisadi imkanlarına və investisiya mühitinə marağın artdığını nümayiş etdirir. Aparılan müzakirələr yeni layihələrin reallaşması, biznes əlaqələrinin genişlənməsi və uzunmüddətli tərəfdaşlıq üçün mövcud potensialı ortaya qoyur.

R.Mahmudov hesab edir ki, bu səfər münasibətlərin sistemli məcrada inkişafına təkan verə bilər: "Almaniya Azərbaycanın Cənubi Qafqazda əsas iqtisadi tərəfdaşlarından biridir. Almaniya Xarici İşlər Nazirliyinin məlumatına əsasən, 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi təxminən 1,7 milyard avro təşkil edib. Azərbaycan eyni zamanda Almaniyanın mühüm neft təchizatçılarından biridir və regionda yeganə Almaniya Xarici Ticarət Palatası məhz Bakıda fəaliyyət göstərir. Yeni mərhələdə əməkdaşlığın enerji təhlükəsizliyi ilə məhdudlaşmayaraq bərpaolunan enerji, "yaşıl keçid", sənaye, nəqliyyat-logistika, rəqəmsallaşma, səhiyyə, peşə təhsili və alman şirkətlərinin Azərbaycana investisiyalarının artırılması istiqamətlərində də genişlənməsi mümkündür. Prezidentin səfər çərçivəsində Almaniya iqtisadiyyatının Şərq Komitəsinin rəhbərliyi ilə görüşü də iqtisadi əməkdaşlığın səfərin əsas gündəliklərindən biri olduğunu göstərdi".

Digər mühüm istiqamətin Azərbaycan-Avropa İttifaqı münasibətləri olduğunu deyən deputat qeyd edib ki, Prezident İlham Əliyevlə Kansler Fridrix Merts arasında 2026-cı ilin martında keçirilmiş telefon danışığında ikitərəfli əlaqələrlə yanaşı, Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının genişləndirilməsi də müzakirə olunub. Almaniyanın Avropanın aparıcı siyasi və iqtisadi dövlətlərindən biri olması nəzərə alınarsa, Berlində qarşılıqlı etimada əsaslanan danışıqlar Azərbaycanın Avropa İttifaqı ilə dialoquna da müsbət təsir göstərə bilər.

"Eyni zamanda səfərin regional əhəmiyyəti də böyükdür. Almaniya Azərbaycan və Ermənistan arasında sülh prosesini, onun regionda sabitlik və iqtisadi əməkdaşlıq üçün yaratdığı imkanları dəstəkləyir. Ölkəmizin formalaşdırdığı yeni regional reallıqlar, Orta dəhlizin əhəmiyyətinin artması və Avropanın enerji marşrutlarını şaxələndirmək istəyi Azərbaycanı Almaniya üçün daha vacib tərəfdaşa çevirir. Bütövlükdə bu səfəri Azərbaycan-Almaniya münasibətlərində mövcud imkanların daha səmərəli reallaşdırılması istiqamətində atılmış mühüm addım kimi dəyərləndirmək olar. Əminliklə demək mümkündür ki, Prezident İlham Əliyevin Almaniyaya rəsmi səfəri ölkələrimiz arasında siyasi dialoqun daha intensiv xarakter almasına, iqtisadi əlaqələrin genişlənməsinə yeni imkanlar açacaq", - deyə o bildirib.

R.Mahmudov vurğulayıb ki, səfərin nəticələri Azərbaycanın Avropa ilə tərəfdaşlıq gündəminə yeni məzmun gətirəcək, əməkdaşlığın praktik müstəvidə daha məhsuldar nəticələr verməsinə şərait yaradacaq. Bu isə Avropanın enerji təhlükəsizliyi, nəqliyyat əlaqələri və iqtisadi maraqları baxımından faydalı nəticələr vəd edir və səfər Bakı-Berlin dialoqunda yeni səhifə kimi yadda qalacaq.

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Bakıda yaşıllaşdırma işləri davam etdirilir





**Bakı Şəhər İcra Hakimiyyətində (BŞİH) paytaxtın təsərrüfat xidmətləri rəhbərlərinin iştirakı ilə müşavirə keçirilib.**

BŞİH-in Mətbuat xidmətindən verilən məlumata görə, müşavirədə paytaxtda həyata keçirilən abadlıq-quruculuq işləri, yaşıllaşdırma sahəsində görülən tədbirlər və qarşıda duran vəzifələr, kommunal xidmətlərin fəaliyyəti müzakirə olunub. Bildirilib ki, Bakı şəhərində yaşıllaşdırma tədbirləri davam etdirilir. BŞİH-in Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən paytaxtın müxtəlif ərazilərində yeni növ ağac və kolların əkilməsi həyata keçirilir.

Qeyd edilib ki, son illər aparılan tədbirlər nəticəsində şəhərdə yaşıllıq və flora müxtəlifliyi əhəmiyyətli dərəcədə artıb. Bununla yanaşı, paytaxtın iqlim şəraitinə uyğunlaşan yeni ağac, kol və gül növlərinin birliyin xüsusi istixanalarında yetişdirilməsi və daha sonra əkilməsi davam etdirilir. Bu işlər şəhərin ekoloji mühitinin yaxşılaşdırılması, biomüxtəlifliyin artırılması və urbanistik landşaftın daha da zənginləşdirilməsi məqsədini daşıyır.

Qlobal iqlim dəyişiklikləri və su ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə yaşıllaşdırma tədbirlərində əsasən quraqlığa davamlı və yerli iqlimə uyğun bitki növlərinə üstünlük verilir. Eyni zamanda müxtəlif rəngli dekorativ ağac və kolların əkilməsi şəhərin estetik görünüşünün daha da gözəlləşdirilməsinə xidmət edir.

BŞİH-in Yaşıllaşdırma Təsərrüfatı Birliyi tərəfindən əkilən bitkilər sırasında kanna, platicodon, vinka və digər müxtəlif rəngli dekorativ güllərlə yanaşı, katalpa, meliya, sapindus, deloniks və şəhərin iqlim şəraitinə uyğun bir sıra ağac növləri də yer alır.

Sözügedən yaşıllaşdırma layihələri birliyin təcrübəli landşaft dizaynerləri və mütəxəssisləri tərəfindən aparılır. Paytaxtın yaşıllıq növləri sayının genişləndirilməsi, yeni ağac, gül və kol növlərinin əkilməsi, mövcud yaşıllıq sahələrinin qorunması və inkişaf etdirilməsi istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcək.

*"Azərbaycan"*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Vasitəçilər ABŞ və İrana 10 günlük atəşkəs təklif ediblər

**ABŞ-İran münaqişəsinin gərginləşməsi fonunda vasitəçilər Vaşinqton və Tehrana 10 günlük atəşkəs təklifi təqdim ediblər.**



Bu barədə "Axios" mənbələrə istinadən xəbər verir. Məlumatda deyilir ki, "Qətər, Misir, Pakistan və digər regional vasitəçilər ABŞ və İrana 10 günlük atəşkəs təklif ediblər".

ABŞ rəsmilərinin sözlərinə görə, Tramp administrasiyası təklifi araşdırır və hətta "İsraili diplomatiya üçün pəncərəni bağlaya biləcək addımlardan çəkinməyə çağırıb". "Axios"un qeyd etdiyi kimi, bu təklif qəbul olunarsa, hərbi əməliyyatları dayandıracaq və Hörmüz boğazında gəmiçilik yollarını tamamilə açacaq. Təşəbbüs həmçinin Vaşinqton və Tehrana Anlaşma Memorandumuna qayıtmağa imkan verəcək.

Hesabatda hər iki tərəfin hələ təklifi qəbul etmədiyi vurğulanır. Axios iki ssenari proqnozlaşdırır: ya tərəflər 10 günlük atəşkəsə razılaşacaq, ya da ABŞ "Tehranı təslim olmağa məcbur etmək üçün İsraillə kütləvi birgə hərbi kampaniya" başladacaq.

Nəşrin məlumatına görə, Tramp hələlik yekun qərar verməyib və rəsmilər vəziyyətin gələcəyini yaxın bir neçə günə müəyyən edəcəklərinə inanırlar. "Axios" qeyd edir ki, Vaşinqton danışıqların uğursuzluğa düçar olmasına hazırlaşa bilər. Son günlər ABŞ ordusu bölgəyə onlarca qırıcı və tanker təyyarəsi yerləşdirərək böyük eskalasiya üçün lazım olan qüvvələri toplayıb. Eyni zamanda İsrail mənbələri nəşrə bildiriblər ki, İsrail Müdafiə Qüvvələri qarşıdakı günlərdə münaqişənin tammiqyaslı koordinasiyalı kampaniyaya çevrilməsi ehtimalı ilə əlaqədar yüksək hazırlıq vəziyyətindədir.

# Judit Polgar ölkə prezidentliyinə namizəd olmaq istəmədi

**Judit Polgar milləti birləşdirmək kimi tarixi məsuliyyəti öz üzərinə götürməyə hazır olmadığını və buna görə də prezidentliyə namizəd olmaq təklifini qəbul etmədiyini bildirib.**



İdman tarixinin ən uğurlu qadın şahmatçısı Macarıstan Baş naziri Peter Macyardan müvafiq təklif aldıqdan sonra "Facebook"da yazıb: "Məni Respublika Prezidenti vəzifəsinə namizəd göstərmək təşəbbüsünü həyatımın ən böyük şərəfi hesab edirəm və buna görə son dərəcə minnətdaram". Judit Polgar parlamentdəki "Tisza" fraksiyasının ona birmənalı dəstəyini bildirməsindən sonra cavabını dərc edib.

Peter Macyar Judit Polgarın qərarına belə cavab verib: "Hörmətli Judit! Macarıstan üçün etdiyiniz işlərə görə təşəkkür edirəm! İnanıram ki, milyonlarla macarın adından danışıram: hətta fərqli bir rolda olsa belə biz gələcəkdə də sizə güvənirik!"

Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, Prezident Tamaş Şujokun səlahiyyət müddəti iyulun 20-də başa çatıb və bu vəzifəni parlamentin Sədri Aqnes Forsthöffer müvəqqəti icra edir. Parlament 30 gün ərzində respublikanın yeni prezidentini seçməlidir.

# Fransanın 27 departamentində yüksək yangın təhlükəsi elan edilib

**Meşə yanğınları mövsümünün ötən ildən daha tez başladığı və ilin əvvəlindən bəri minlərlə hektar ərazinin yanğın nəticəsində məhv edildiyi Fransada 27 departamentdə yüksək yanğın təhlükəsi səviyyəsi elan edilib. Eyni zamanda dünən Var cənub-şərq departamentində baş verən meşə yanğınları hələ də nəzarətdən kənardadır.**



Yerli medianın məlumatına görə, Fransada meşə yanğınları ilə mübarizə davam edir. İlin əvvəlindən bəri 32000 hektardan çox ərazi yanıb. Var departamentinin müxtəlif ərazilərində alovla mübarizə üçün 600-dən çox yanğınsöndürən cəlb olunub. Havadan və yerdən yanğınsöndürmə işləri gecə saatlarında davam edib. Departamentin prefekturasının sosial media platforması "X"də dərc olunmuş açıqlamasında bildirilir ki, son günlər Tarados kommunasında 200 hektardan çox ərazi yanıb və yanğın 10 kəndi əhatə edib. Bundan əlavə, iyulun 12-da Korsika adasındakı Yuxarı Korsika departamentində başlayan iki meşə yanğını hələ də nəzarət altına alınmayıb.

Fransanın Meteo-France meteoroloji xidməti 27 departamentdə yüksək yanğın təhlükəsi xəbərdarlığı elan edib. Həmçinin bildirib ki, anomal istilər səbəbindən Fransanın cənub-şərqindəki 6 departamentdə narıncı hava xəbərdarlığı qüvvədədir.

Ötən həftə Fransa hökuməti ilin əvvəlindən bəri ölkədə 32 min hektar ərazinin yandığını və bu rəqəmin 2025-ci il yanğın mövsümünün ümumi sayından çox olduğunu açıqlayıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsində dövlət ittihamını müdafiə edən prokurorlar çıxışa başlayıb





İyulun 21-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Araik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə məhkəmə iclasına sədrlik edən hakim Elmar Rəhimov müdafiə tərəfinin təqsirləndirilən şəxslərlə konfidensial görüş keçirilməsi barədə vəsatətinə məhkəmə kollegiyası tərəfindən baxıldığını və bu məsələnin həll edildiyini diqqətə çatdırıb.

Daha sonra qeyd olunub ki, müdafiə tərəfi və zərərçəkmiş şəxslərin nümayəndələri artıq məhkəmə çıxışlarını ediblər. Mövcud prosessual ardıcıllığa uyğun olaraq dövlət ittihamının müdafiəsi məqsədilə çıxış etmək üçün söz dövlət ittihamçısına verilir.

Prosesin prosessual ardıcıllığına uyğun olaraq dövlət ittihamının müdafiəsi ilə çıxış edən dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova birinci instansiya məhkəməsində aparılmış məhkəmə istintaqının nəticələrini və iş üzrə toplanmış sübutları ətraflı təhlil ediblər.

Dövlət ittihamını müdafiə edən prokurorlar qeyd ediblər ki, birinci instansiya məhkəməsində cinayət işi üzrə bütün sübutlar hərtərəfli, tam və obyektiv qaydada araşdırılıb. İş materiallarında əksini tapan hallar zərərçəkmiş şəxslərin və şahidlərin ifadələri, məhkəmə ekspertizalarının rəyləri, maddi sübutlar, sənədlər, hadisə yerinə baxış protokolları, eləcə də cinayət işi üzrə toplanmış digər sübutlarla öz təsdiqini tapıb.

Əlavə edilib ki, məhkəmə istintaqı zamanı təqdim edilmiş sübutların məcmusu təqsirləndirilən şəxslərə qarşı irəli sürülmüş ittihamların əsaslı olduğunu təsdiq edir və birinci instansiya məhkəməsinin gəldiyi nəticələrin cinayət işi üzrə araşdırılmış sübutlarla uzlaşdığını göstərir.

Məhkəmənin növbəti iclası iyulun 24-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Araik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşova əzizi

**ROZA QARAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidməti publik hüquqi şəxsin rəhbərliyi və kollektivi Naftalan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Xaqani Vəliyevə anası

**RAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3204**
**Sifariş 922**

**Qiyməti 60 qəpik**